Xalqın qəzeti!

# Xalq qəzeti

№ 116 (30810) 5 iyun 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Prezident İlham Əliyevin multivektorluğu, praqmatizmi və diplomatik məharəti

**Xarici siyasət və təhlükəsizliyin təminatı, ilk növbədə, başqa dövlətlərlə münasibətlərdə öz məqsədlərinə çatmaq üçün imkanlardan və gücdən istifadə etməyin zəruriliyini ortaya qoyur. Müasir dövrdə xarici siyasət və təhlükəsizlik müharibə və sülh problemindən əlavə, çox geniş məsələlərin həlli ilə mütləq şəkildə bağlıdır. Bu səbəbdən uzaqgörən dövlət rəhbəri xarici siyasəti müəyyənləşdirərkən bütün riskləri və imkanları nəzərə almalı və dəyərləndirməlidir.**

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələndən dərhal sonra təhlükədə olan Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün mövcud olan imkanlarla xarici siyasətin ən çevik vasitələrini işə saldı. Onun strateji xarici siyasət xəttində Azərbaycanın milli maraqları ən mühüm amil kimi qorunur və atılan bütün addımlar bu maraqların əsla zərər görməməsinə və qorunmasına xidmət edirdi. Hakimiyyətə qayıdışından sonrakı 10 ildə Heydər Əliyev milli mənafe naminə ilkin mərhələdə qarşıya qoyduğu siyasi, sosial-iqtisadi və xarici diplomatiya sahəsindəki məqsədlərinə nail oldu. Ölkənin ərazilərinin 20 faizinin işğal altında olması ciddi problem kimi qarşıda dursa da, bunun həlli perspektivinə aparan yolda strateji addımlar atıldı. Tarix göstərdi ki, 1994-cü ildə Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində Bişkekdə əldə olunan atəşkəs 26 il sonra işğalı aradan qaldıracaq Azərbaycan Ordusunun Zəfər yürüşünə hazırlıq üçün ölkəyə son dərəcə mühüm və qiymətli vaxt qazandırdı.

ardı 5-ci səhifədə



## Türk dünyasının musiqi dühası

**Professional musiqi mədəniyyətimizin təməl daşını qoymuş, ölməz əsərləri ilə cahan mülkünü lərzəyə salmış dahi bəstəkar, bütün Şərq aləmində opera və operetta janrının yaradıcısı, dramaturq, publisist, pedaqoq, musiqişünas alim, tərcüməçi, mütəfəkkir, filosof, akademik, ictimai xadim, novator sənətkar, əvəzolunmaz böyük insan Üzeyir Hacıbəyli 1910-cu ildə "Həqiqət" qəzetində yazırdı: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar.**



Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər". Mütəfəkkiranə deyilmiş bu kəlamları tamamilə Üzeyir bəyin özünə şamil etmək olar.

*(ardı 10-cu səhifədə)*

## Azərbaycanın Afrika diplomatiyasında yeni strateji yön



səhifə ⇨ 7

## İrəvanda siyasi kəskinləşmə: "qılıncların çarpazlaşdığı" məqam



səhifə ⇨ 7

## "Məxməri inqilab"ın rəzillik mərhələsi

*Paşinyanın əsas məqsədi və hakimiyyətə qarşı "dini savaş"*




**Ermənistanda hakimiyyət-kilsə mübarizəsi davam edir. Baş nazir Nikol Paşinyan məsələni daha konkret qoyur. Təxminən belə: Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin katolikosu II Qaregin bakirlik andını pozubsa və övlad sahibidirsə, postunu tərk etməlidir. Hər şey bu qədər sadədir. Amma sadəlikdə mürəkkəblik çalarları istisna deyil. Çünki hazırda yaşananlar əvvəldə baş vermiş insidenti xatırladır. O insidenti ki, nəticə etibarilə Paşinyanın qələbəsi ilə başa çatmışdı. Bu barədə sonda söz açacağıq. Hələlik isə...**

*

İstər-istəməz, sual olunur: görəsən, Ermənistanda müzakirəyə çıxarılacaq başqa mövzu yoxdur ki, baş nazir keşişlərin şəxsi həyatına qarışır? Əlbəttə, Nikol durumu şəxsi həyata müdaxilə kimi qiymətləndirmir. O deyir ki, bütün ermənilərin katolikosunun şəxsi həyatı ola bilməz və bu, həm də dövlət məsələsidir: "Mən Erməni Apostol Kilsəsinin davamçısı kimi bu məsələni qaldırıram. Çünki mənəvi təhlükəsizlik durumunu görürəm. Bunu Ermənistan Respublikasının baş naziri kimi də deyirəm. Çünki dövlət təhlükəsizliyi məsələsi də var. Müqəddəs Eçmiədzin vəziyyətlə bağlı öz mövqeyini aydınlaşdırmalıdır."

*(ardı 8-ci səhifədə)*

## Kütləvi məzarlıqlar ədalət tələb edir

*Dünya erməni qaniçənliyinə niyə susur?*



**Azərbaycan–Ermənistan münaqişəsi yalnız torpaq və siyasi iddialardan ibarət olmayıb, minlərlə soydaşımızın itkin düşməsi, neçə-neçə ailənin taleyinə qara kölgə salması ilə nəticələnib. Rəsmi məlumata görə, hazırda 3977 Azərbaycan vətəndaşı itkin düşmüş sayılır. 30 ildən çoxdur ailələr doğmalarından bir xəbər gözləyir. Ən acınacaqlısı odur ki, Ermənistan tərəfi bu şəxslərin taleyi ilə bağlı bugünədək heç bir məlumat təqdim etməyib. Beynəlxalq təşkilatlar qarşısında məsuliyyətdən yayınaraq onların sonrakı aqibətini ört-basdır etmək yolunu seçib.**

ardı 6-cı səhifədə

## Su torpağın diriliyi, bolluğun təməlidir



səhifə ⇨ 9

## Samanyolu Andromeda ilə toqquşmaya bilərmi?



səhifə ⇨ 11

## Böyük Britaniya "Soyuq müharibə" məntiqinə qayıdırmı?



səhifə ⇨ 11

# "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası nəzərdə tutulur.

**2.** "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının sədrinə verilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 iyun 2025-ci il**

# "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 sentyabr tarixli 492 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 170 (Cild I) 6-cı hissəsində "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 169 (Cild I); 2024, № 12, maddə 1359 ) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.4-cü bənddə ", Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2. 2.5-ci bənddən "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti," sözləri çıxarılsın;

2.3. 2.6-cı bənddə "yerli icra hakimiyyəti orqanları və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin və yerli icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

2.4. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. həmin Məcəllənin 41-ci maddəsinin ikinci hissəsində, 74-cü maddəsinin üçüncü hissəsində və 83-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər;

2.5. 2.7-1-ci bənddə "Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirirlər" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir" sözləri ilə əvəz edilsin;

2.6. 2.7-2-ci bənddə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti " sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti qismində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.7. 2.8 – 2.10-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.8. həmin Məcəllənin 12-ci maddəsinin üçüncü hissəsində, 26-cı maddəsinin ikinci və dördüncü hissələrində, 90-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirirlər;

2.9. həmin Məcəllənin 22-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirirlər;

2.10. həmin Məcəllənin 24-cü maddəsinin üçüncü hissəsində, 42-ci maddəsinin ikinci hissəsində, 47-ci maddəsinin dördüncü hissəsində, 60-cı, 83-cü və 104-cü maddələrinin birinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir;";

2.8. 2.12-ci bəndə ikinci halda "Nazirliyi," sözündən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi," sözləri əlavə edilsin;

2.9. 2.13-cü bənddə "və dördüncü hissələrində" sözləri "hissəsində" sözü ilə, "həyata keçirir" sözləri "və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirirlər" sözləri ilə əvəz edilsin;

2.10. 2.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

***(ardı 4-cü səhifədə)***

# Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan milli yığma komandasının 2025-ci il minifutbol üzrə Dünya çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 iyun 2025-ci il**

# Quba rayonunun Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)–Çiçi–Səbətlər–Qənidərə–Sırt Çiçi–Təngəaltı avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Yeddi min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi (137 km)–Çiçi–Səbətlər–Qənidərə–Sırt Çiçi–Təngəaltı avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 iyun 2025-ci il**

# Azərbaycan–İran münasibətlərində dönüş məmnunluq doğurur



**İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.**

İran Prezidenti dövlətimizin başçısını, qardaş və dost Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, xalqımıza rifah və tərəqqi arzulayıb.

Prezident İlham Əliyev də öz növbəsində İran Prezidentini, qardaş və dost İran xalqını qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, firavanlıq və tərəqqi arzularını çatdırıb.

Məsud Pezeşkian ölkəmizə rəsmi səfərini, səfər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılan səmərəli müzakirələri məmnunluqla xatırlayıb.

Azərbaycan Prezidenti də səfər zamanı aparılan müzakirələri yüksək qiymətləndirib.

Telefon danışığı əsnasında hazırda iki ölkənin aidiyyəti dövlət qurumlarının Məsud Pezeşkianın ölkəmizə rəsmi səfəri zamanı qarşıya qoyulan tapşırıqların həyata keçirilməsi üçün səylərini davam etdirdikləri vurğulanıb. Səfərin nəticəsi olaraq Bakı–Təbriz aviareysinin bərpası və Bakı–Tehran istiqamətində təyyarə reyslərinin sayının artırılması qeyd edilib, bunun xalqlarımız arasında təmasların artmasına müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub.

Azərbaycan–İran əlaqələrinin inkişafında hazırda dönüş nöqtəsinin olduğu vurğulanıb və birgə səylərlə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq bildirilib.

Telefon söhbəti zamanı dövlət başçıları qarşılıqlı maraq doğuran digər məsələlərə də dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Əlamətdar bayram - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycanın müstəqilliyinin qürurla qeyd olunduğu bu gün həm də ölkələrimiz arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələrini bir daha təsdiqləmək üçün yaxşı fürsətdir.

Bu əlamətdar gündə xalqlarımızın davamlı rifahı naminə qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığımızı dərinləşdirməyə sadiqliyimizi bir daha bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd ŞAHABUDDİN,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə Paraqvay Respublikasının hökuməti və xalqı adından və şəxsən öz adımdan səmimi qardaşlıq salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar bayram münasibətilə qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və rifah arzularımı ifadə edir, eyni zamanda Paraqvay Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərinin daim möhkəmlənməsini diləyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizə ən dərin hörmət və ehtiramımı bir daha bildirirəm.

***Santyaqo PENYA,***
***Paraqvay Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının elan edildiyi 28 May – Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan müstəqilliyini əldə etdiyi vaxtdan böyük uğurlara imza atıb, ölkə daxilində köklü dəyişikliklər həyata keçirilib, eləcə də Qərb institutlarına inteqrasiya istiqamətində mühüm irəliləyişlər əldə olunub və biz bütün bu prosesləri təqdirlə müşahidə edirik.

Tarix boyu Azərbaycan ilə münasibətlər Türkiyə üçün prioritet olub. Ulu öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Heydər Əliyevin isə "Bir millət, iki dövlət" kəlamları ölkələrimiz arasında münasibətlərin təməl prinsipi kimi qəbul edilmiş və Siz bu münasibətləri daha da inkişaf etdirmisiniz.

Türkiyə-Azərbaycan münasibətləri çoxşaxəli əməkdaşlığa əsaslanır, hər iki ölkə münasibətlərin daha da dərinləşməsinə diqqət yetirir, regionda sülhü və sabitliyi prioritet hesab edir, Türk Dövlətləri Təşkilatını gücləndirir və qlobal siyasətdə daha fəal rol oynamağı hədəfləyir.

Cənubi Qafqazda və Türk dünyasında uzunmüddətli perspektivdə nümunəvi münasibətlər kimi qiymətləndiriləcək Azərbaycan-Türkiyə əlaqələrinin gələcəkdə daha da möhkəmlənməsini arzulayıram.

Müstəqillik Günü münasibətilə Sizə bir daha səmimi təbriklərimi, dərin hörmət və ehtiramımı çatdırıram.

***Kadim DURMAZ,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı, TÜRKPA-da Türkiyə nümayəndə heyətinin üzvü***

# Baş nazir Düşənbədə




**İyunun 4-də Azərbaycanın Baş naziri Əli Əsədov Tacikistanın Baş naziri Kohir Rasulzodənin dəvəti ilə MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbə şəhərinə işgüzar səfərə gəlib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Düşənbə Beynəlxalq Hava Limanında Ə.Əsədovu Tacikistan Respublikasının Baş nazirinin müavini, Azərbaycan və Tacikistan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Birgə Komissiyanın həmsədri Usmonali Usmonzoda və digər rəsmi şəxslər qarşılayıblar.

# "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

**(əvvəli 2-ci səhifədə)**

"2.14. həmin Məcəllənin 56-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;";

2.11. 2.15-ci bənddə "Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirirlər" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir" sözləri ilə əvəz edilsin;

2.12. 2.16-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.16. həmin Məcəllənin 48-ci maddəsinin ikinci hissəsində, 66-cı maddəsinin üçüncü hissəsində, 68-ci maddəsinin ikinci hissəsində, 86-cı maddəsinin ikinci hissəsində, 87-ci maddəsinin birinci hissəsində, 88-ci maddəsinin dördüncü hissəsində və 93-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir";

2.13. 2.18-ci bənddə "Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.14. 2.19-cu bənddə "Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi," sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.15. 2.22-ci bəndə "Nazirliyi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin;

2.16. 2.23-cü bənd ləğv edilsin;

2.17. 2.25-ci bənddə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Regional Su Meliorasiya Xidməti qismində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.18. 2.26-cı bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti qismində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.19. 2.28-ci bəndə "Nazirliyi" sözündən sonra "və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin.

3. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 722 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 383 (Cild I); 2024, № 12, maddə 1359) 2.6-cı bəndində "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

4. "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611 (Cild I) 2.8-ci bəndindən ", əsasnamələrinə və nizamnaməsinə uyğun olaraq," sözləri çıxarılsın və həmin bənddə "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

5. "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 86 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissə üzrə:

5.1.1. altıncı abzasa "Nazirliyi," sözündən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin;

5.1.2. on ikinci abzasda "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə"nin 2-ci hissəsində "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirirlər" sözləri ilə əvəz edilsin.

6. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 45 (Cild I); 2024, № 5 (I kitab), maddə 504) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. üçüncü abzasda hər üç halda "bəndinin" sözü "hissəsinin" sözü ilə, hər iki halda "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

6.2. beşinci və altıncı abzaslarda "bəndində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

6.3. yeddinci abzasda hər beş halda "bəndində" sözü "hissəsində" sözü ilə, "bəndinin" sözü "hissəsinin" sözü ilə əvəz edilsin;

6.4. səkkizinci abzasda "bəndində" sözü "hissəsində" sözü ilə əvəz olunsun və həmin abzasa "Nazirliyi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin.

7. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 364 nömrəli, 17 aprel tarixli 367 nömrəli, 15 may tarixli 392 nömrəli və 23 may tarixli 399 nömrəli fərmanları) 1.38-ci bəndində "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Regional Su Meliorasiya Xidməti qismində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

8. "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 858 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 90 (Cild I) 3–5-ci hissələrində "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

9. "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 957 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 562 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. ikinci abzasdan "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti," sözləri çıxarılsın və həmin abzasa ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin;

9.2. üçüncü abzasda "Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti öz səlahiyyətləri daxilində həyata keçirirlər" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi həyata keçirir" sözləri ilə əvəz edilsin.

10. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 979 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 584 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.3-cü bənddə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti öz səlahiyyətləri daxilində" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

10.2. həmin Fərmanla təsdiq edilmiş "Torpaqların münbitliyinin təmin olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5-ci hissəsində "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262, № 7, maddə 826; 2025, № 1, maddə 30) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin 25-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununa dördüncü halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin.

12. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 noyabr tarixli 312 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1007 (Cild I) 2.6-cı bəndinə "Dövlət Xidməti" sözlərindən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin və həmin bənddən " ,"Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

13. "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"nin 8.1.1-ci yarımbəndindən "Su Ehtiyatları Dövlət Agentliyi," sözləri çıxarılsın;

13.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturu"nun ikinci hissəsinin beşinci abzası ləğv edilsin.

14. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368 (Cild I); 2024, № 12 (II kitab), maddə 1364) aşağıdakı dəyişikliklər edilsin:

14.1. 3-cü hissədə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

14.2. 6.3-cü bənddə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Dövlət Su Ehtiyatları Agentliyinin" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli və 17 aprel tarixli 371 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 4-cü hissə üzrə:

15.1.1. 4.24-cü bəndə ikinci halda "Nazirliyi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin;

15.1.2. 4.46-cı bənddə "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

15.2. 5-ci hissə üzrə:

15.2.1. 5.6-cı bənddən "265," rəqəmləri çıxarılsın;

15.2.2. aşağıdakı məzmunda 5.6-5-ci bənd əlavə edilsin:

"5.6-5. həmin Məcəllənin 265-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi baxırlar;";

15.2.3. 5.10-cu bənddə "233 və 243.0.7-ci maddələrində" sözləri "243.0.7-ci maddəsində" sözləri ilə əvəz edilsin;

15.2.4. aşağıdakı məzmunda 5.10-1-ci bənd əlavə edilsin:

"5.10-1. həmin Məcəllənin 233-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi baxırlar;";

15.2.5. 5.11-ci bənddə "264.0.1, 264.0.4, 264.0.6, 264.0.7, 266.1" rəqəmləri "266.1 (bu Fərmanın 5.11-1-ci bəndi nəzərə alınmaqla)" sözləri ilə əvəz edilsin;

15.2.6. aşağıdakı məzmunda 5.11-1-ci bənd əlavə edilsin:

"5.11-1. həmin Məcəllənin 264.0.1, 264.0.4, 264.0.6, 264.0.7 və 266.1-ci (su mənbələrinin və mineral bulaqların sanitar-mühafizə zonalarında, çatlı süxurların və sulu təbəqələrin səthə çıxdığı yerlərdə, yaxud içməli su təchizatı və təsərrüfat-məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrinə münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında işlərə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi baxır;";

15.2.7. 5.24-cü bənddə "və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri ", Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

16. "ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 may tarixli 890 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 851 (Cild I); 2024, № 8, maddə 937) 3-cü hissəsində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti," sözləri ilə əvəz edilsin.

17. "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 53 (Cild I) 3-cü hissəsinə "Azərbaycan" sözündən əvvəl "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi," sözləri əlavə edilsin və həmin hissədən "və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

18. "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 fevral tarixli 1243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 187 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

18.1. 3.1-ci bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidməti və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri ilə əvəz edilsin;

18.2. 3.2-ci bənddə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidmətinə və İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinə" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

19.1. 12-ci hissədə "190 və 251.3-cü maddələrində" sözləri "190-cı maddəsində" sözləri ilə əvəz edilsin;

19.2. 19-cu hissədən "229," rəqəmləri çıxarılsın və həmin hissədə ", 253-1.1.3, 262, 264.0.3 və 264.0.5-ci" sözləri "və 253-1.1.3-cü" sözləri ilə əvəz edilsin;

19.3. 20-ci və 21-ci hissələr ləğv edilsin;

19.4. aşağıdakı məzmunda 77-ci hissə əlavə edilsin:

"77. Məcəllənin 229, 251.3, 262, 263, 264.0.2, 264.0.3 və 264.0.5 ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi adından – Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin yerli bölmələrinin rəhbəri, onun müavini, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.".

20. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 363 nömrəli və 22 may tarixli 397 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 26-cı hissəsinin "Dövlət orqanının (qurumunun) adı" sütununda "Azərsu" ASC" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I); 2024, № 4, maddə 385, № 6 (I kitab), maddə 654, № 8, maddə 943, № 10, maddə 1140, № 12 (II kitab), maddə 1383) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin 4.1.18-ci yarımbəndində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 fevral tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 98 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatına inteqrasiyası tələb olunan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 16-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"16. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi üzrə

16.1. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Abonent Sistemi və Coğrafi İnformasiya Sistemi

16.2. Regional Su Meliorasiya Xidmətinin Abonent Sistemi və Coğrafi İnformasiya Sistemi".

23. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359) aşağıdakı dəyişikliklər edilsin:

23.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsi üzrə:

23.1.1. 3.0.35-ci yarımbənddən ", çirkab suların atılması qayda və şərtlərinə" sözləri çıxarılsın;

23.1.2. 3.0.40-cı yarımbənddə "uçotunu" sözü "uçotunun" sözü ilə, "kadastrını aparmaq" sözləri "kadastrının aparılmasında iştirak etmək" sözləri ilə əvəz edilsin;

23.1.3. 3.0.41-ci yarımbənd ləğv edilsin;

23.1.4. 3.0.42-ci yarımbənddə "monitorinqini aparmaq" sözləri "monitorinqinin aparılmasında" sözləri ilə, "sxemlərini, su təsərrüfatı balanslarını hazırlamaq" sözləri "sxemlərinin, su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək" sözləri ilə əvəz edilsin;

23.1.5. 3.0.43-cü yarımbənddən "və onların mühafizəsi" sözləri çıxarılsın;

23.1.6. 3.0.44-cü yarımbənd ləğv edilsin;

23.1.7. 3.0.70-ci yarımbənddən "və su" sözləri çıxarılsın;

23.1.8. 3.0.88-ci yarımbənddən "yerüstü suların dövlət uçotunun aparılmasını təmin etmək," sözləri çıxarılsın;

23.1.9. 3.0.90-cı yarımbənddə "sxemlərini tərtib etmək, eləcə də hövzə idarəetmə planlarını hazırlamaq və həyata keçirmək" sözləri "sxemlərinin tərtib edilməsində, eləcə də hövzə idarəetmə planlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək" sözləri ilə əvəz edilsin;

23.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin 3.0.8-ci və 3.0.9-cu yarımbəndləri ləğv edilsin;

23.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti haqqında Əsasnamə" üzrə:

23.3.1. 1.1-ci bənddən ", yeraltı su obyektləri istisna olmaqla, su obyektlərinin" və "və su kadastrının aparılması" sözləri çıxarılsın;

23.3.2. 2.0.3-cü yarımbənddə ", yeraltı su obyektləri istisna olmaqla, su obyektlərinin monitorinqinin və su kadastrının aparılmasının, habelə yerüstü suların dövlət uçotunun" sözləri "monitorinqinin" sözü ilə əvəz edilsin;

23.3.3. 3.0.3-cü yarımbənddən "və su obyektlərinin (yeraltı su obyektləri istisna olmaqla)" sözləri çıxarılsın;

23.3.4. 3.0.11-ci yarımbənddən "yerüstü suların dövlət uçotunu aparmaq," sözləri çıxarılsın;

23.3.5. 3.0.20-ci yarımbənddən "su," sözü çıxarılsın;

23.3.6. 3.0.26-cı və 3.0.27-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.0.26. Nazirliyin razılığı ilə aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə su obyektlərinin (yeraltı su obyektləri istisna olmaqla) monitorinqinin aparılmasında, su ehtiyatlarından kompleks istifadə və onların mühafizəsi sxemlərinin, su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək;

3.0.27. Nazirliyin razılığı ilə yerüstü suların dövlət uçotunun, həmçinin su obyektlərinin (yeraltı su obyektləri istisna olmaqla) monitorinqi əsasında aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə dövlət su kadastrının aparılmasında iştirak etmək;";

23.3.7. 3.0.29-cu yarımbənddən "və yerüstü su obyektlərində" sözləri çıxarılsın;

23.4. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 3.1.7-ci yarımbəndi ləğv edilsin.

24. "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248 (Cild I) 11-ci hissəsində "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki Regional Su Meliorasiya Xidməti" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1343 (Cild I); 2024, № 11, maddə 1196; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 367 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"nın 8-ci və 10-cu hissələri ləğv edilsin.

26. "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 27 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 363 nömrəli Fərmanı) 2.4.2-ci və 2.4.3-cü yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"2.4.2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi;

2.4.3. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti.".

27. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I); 2024, № 6 (I kitab), maddə 665; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 363 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"nin 4.4-cü bəndinin birinci cümləsinə "Nazirliyinin," sözündən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin və" sözləri əlavə edilsin və həmin bənddən "və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin" sözləri çıxarılsın.

28. "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli 1754 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 743 (Cild I) 6-cı hissəsində "Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti" sözləri "Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin.

29. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 22 noyabr tarixli 525 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 997 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 iyun 2025-ci il**

# Milli Məclisdə




**Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşa yenidən TBMM sədri vəzifəsinə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.**

S.Qafarova Numan Kurtulmuşu yenidən yüksək vəzifəyə seçilməsi münasibətilə öz adından və Milli Məclisin deputatları adından təbrik edərək, ona ən xoş arzularını çatdırıb.

Dünən, həmçinin Sahibə Qafarovanın Numan Kurtulmuşla telefon danışığı da olub. Milli Məclisin sədri TBMM-in sədrini bir daha təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə Böyük Millət Məclisinin sədri təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirib, TBMM ilə Milli Məclis arasında əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini ifadə edib.

***

**Milli Məclisin sədri Sahibə Qafarova iyunun 4-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq və qardaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb. Sahibə Qafarova ötən həftə Pakistan Baş naziri Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri, eləcə də dövlət başçılarının işğaldan azad olunmuş Laçın şəhərində Azərbaycan–Pakistan–Türkiyə Üçtərəfli Zirvə Görüşünün keçirilməsi barədə məmnunluqla danışıb.

Pakistan səfiri Qasım Mohiuddin iki xalq arasında möhkəm dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu qeyd edib. O, Pakistan–Hindistan münaqişəsi barədə geniş məlumat verib və Azərbaycanın bütün sahələrdə ölkəsinə dəstəyini yüksək qiymətləndirib.

Görüşdə parlamentlərarası əməkdaşlığın iki ölkə arasında münasibətlərin inkişafına müsbət təsiri qeyd olunub.

***

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Belçika Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Julyen de Frepon ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Belçika arasında əlaqələrin inkişafı üçün geniş imkanların mövcud olduğu qeyd edilib.

Milli Məclisin sədri parlamentlərarası əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını bildirib, Belçika parlamentinin əvvəlki rəhbərləri ilə keçirdiyi görüşləri xatırladıb. O, qarşılıqlı səfərlərin və daimi dialoqun münasibətlərin möhkəmlənməsinə, eyni zamanda, daha dolğun məlumat mübadiləsinə şərait yaratdığını vurğulayıb. Bu kontekstdə dostluq qruplarının roluna da toxunub.

Səfir Julyen de Frepon isə çıxışında Azərbaycanda fəaliyyətə başladığı müddətdə ölkə ictimaiyyətinin qonaqpərvər münasibətini yüksək qiymətləndirib. Diplomat iki ölkə arasında iqtisadiyyat, nəqliyyat, logistika və dənizçilik sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəminin olduğunu qeyd edib.

***

**Dünən Azərbaycan və Kamboca parlamentlərinin qarşılıqlı dostluq qruplarının nümayəndələrinin iştirakı ilə videokonfrans formatında görüş keçirilib.**

Onlayn görüşdə Azərbaycanın Kamboca ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Şahin Seyidzadə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri və mövcud potensialı barədə danışıb.

Kamboca Parlamenti Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun rəhbəri Suos Yara isə Kambocanın Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar səviyyəsində əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib.

*XQ*

# Dekolonizasiya və təzminata dair Bakı Bəyanatı

**İyunun 3-də Azərbaycan paytaxtında keçirilən “İmperial quruluş: Kolonial ideologiyalar və reallıqlar arasında” adlı beynəlxalq elmi konfransda Dekolonizasiya və təzminat məsələlərində elmi öhdəliyə dair Bakı Bəyanatı qəbul edilib.**




**Bəyanatda deyilir:**

“Biz, 2025-ci il iyunun 3-də Bakıda keçirilmiş “İmperial quruluş: Kolonial ideologiyalar və reallıqlar arasında” adlı beynəlxalq elmi konfransında iştirak edən alim və akademiklər olaraq, insan hüquqları, ədalət, dekolonizasiya, elmi azadlıq və həqiqət axtarışına dair qlobal dəyərlərə sadiqliyimizi elmi təşəbbüs və yanaşmalarımız vasitəsilə bir daha bəyan edirik.

Biz kolonializmin müasir cəmiyyətlərdə davam edən irsini nəzərə alaraq, onun ideoloji, siyasi, sosial, mədəni və iqtisadi təsirləri barəsində davamlı şəkildə elmi səviyyədə araşdırmanın vacibliyini qəbul edir və kolonializm anlayışının doğru dərk olunması, dialoqun təşviqi, insan ləyaqətinə və xalqların dekolonizasiya hüququna hörmətin inkişaf etdirilməsində elmi-tədqiqat və təhsilin həlledici rolunu vurğulayırıq.

Biz kolonial hakimiyyətin tarixi prosesləri və quruluşlarının qitələrdə dərin, çoxşaxəli təsirlər yaratdığını, lakin bunların çoxunun hələ tam şəkildə həll olunmadığını qəbul edirik. Müxtəlif elmi sahələri, regionları və intellektual ənənələri təmsil edən alimlər olaraq, kolonial irsin tədqiqi zamanı bərabərlik, sülh və doğru səlahiyyətlərin verilməsi istiqamətində fənlərarası əməkdaşlığın və müstəqil araşdırmanın vacibliyini təsdiq edirik.

Bu yanaşmanı rəhbər tutaraq və hər hansı hüquqi öhdəlik yaratmadan, biz dekolonizasiya və təzminat məsələlərinə dair gələcək elmi əməkdaşlıq təşəbbüslərini dəstəkləyir və bu istiqamətə töhfə vermək niyyətimizi açıq şəkildə bəyan edirik.

Bu məqsədlə biz beynəlxalq elmi həmrəyliyi gücləndirmək, tədqiqatçılar arasında əməkdaşlığı genişləndirmək, gənc alimləri dəstəkləmək və dekolonizasiya mövzusunda bilik mübadiləsinə şərait yaratmaq məqsədilə Dekolonizasiya üzrə Beynəlxalq Tədqiqat və Bilik Platformasının yaradılmasında ortaq niyyətimizi bildiririk.

Biz beynəlxalq təşkilatları, hökumətlərarası qurumları, regional institutları və vətəndaş cəmiyyəti nümayəndələrini bu platformaya dəstək verməyə çağırırıq”.

*XQ*

# Yaponiyada Azərbaycan təqdimatı





**Azərbaycanın Yaponiyadakı səfirliyinin və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Tokioda 28 May Müstəqillik Günü və “Osaka Ekspo 2025” çərçivəsində tədbir keçirilib.**

Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, ölkəmizin Yaponiyadakı səfiri Gürsel İsmayılzadə, Yaponiya hökumətinin rəsmiləri, parlamentin deputatları, diplomatik korpusun təmsilçiləri və bu ölkədə yaşayan həmvətənlərimiz iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Yaponiyanın Dövlət himnləri yaponiyalı müğənni Kyoko Yamamoto tərəfindən canlı ifa edilib.

Səfir Gürsel İsmayılzadə 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə firavan ölkəyə çevrildiyini, sosial-iqtisadi sahədə böyük inkişafa nail olmaqla əhalinin rifahının yüksəldiyini bildirib. 2025-ci ilin Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan olunduğunu vurğulayan diplomat bu il müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulunun 30-cu, habelə ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsində qələbənin 5-ci ildönümü olduğunu diqqətə çatdırıb. Gürsel İsmayılzadə ölkəmizin Osaka şəhərində “Ekspo 2025”də fəal iştirakına toxunaraq, Azərbaycan milli pavilyonunun “A” kateqoriyalı pavilyonlar sırasında olduğunu diqqətə çatdırıb.

Yaponiya xarici işlər nazirinin parlament müavini, Yaponiya parlamentinin ilk türkəsilli deputatı, xanım Eri Arfiya Azərbaycan dilində çıxış edərək, Yaponiya hökuməti adından xalqımıza təbriklərini çatdırıb. İki ölkə arasında 1992-ci ildə diplomatik münasibətlər qurulandan bəri yaxşı siyasi əlaqələrə, sıx iqtisadi əməkdaşlığa əsaslanan dostluğun təmin olunduğunu vurğulayan Eri Arfiya bu əlaqələrin inkişafına parlamentlərin də böyük töhfələr verdiyini deyib. O, Azərbaycanın Osakada keçirilən “Ekspo 2025”də fəal iştirakına toxunaraq, milli pavilyonun Azərbaycanın zəngin mədəni irsini, əsrarəngiz təbiətini təqdim etdiyini deyib.

Ötən il COP29 tədbiri zamanı Azərbaycanda səfərdə olduğunu bildirən Yaponiyanın ətraf mühit naziri Asao Keyiçiro ölkəmizin beynəlxalq konfransa uğurla ev sahibliyi etdiyini deyib, tədbir çərçivəsində qazanılan nailiyyətlərin iqlim dəyişmələri ilə mübarizəyə önəmli töhfələr verəcəyinə ümidvar olduğunu ifadə edib. Yaponiya parlamentində Azərbaycan üzrə dostluq qrupunun fəxri sədri Akira Amari və qrupun sədri Tanaka Kazunori Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını təbrik ediblər.

Sonra keçirilən konsert proqramında klassik əsərlərdən parçalar, xalq və bəstəkar mahnıları, milli rəqslərimiz təqdim olunub.

*XQ*

# Azərbaycan–Ermənistan: itkin düşmüş şəxslər üzrə görüş

**Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında növbəti görüş keçirilib.**



Görüş çərçivəsində tərəflər münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması ilə bağlı humanitar məsələləri müzakirə ediblər.

Görüşdə məlumat mübadiləsi imkanları, axtarış tədbirlərinin əlaqələndirilməsi məsələləri nəzərdən keçirilib.

Tərəflər humanitar sahədə dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb və itkin düşmüş şəxslərin ailələrinin maraqları naminə gələcək təmaslara hazır olduqlarını bildiriblər.

*XQ*

# Müstəmləkə düşüncəsinə “yox!”



**İyunun 4-də ADA Universitetində “Müasir beynəlxalq münasibətlərdə müstəmləkə düşüncəsinin davamlılığı” mövzusunda dəyirmi masa keçirilib.**

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən “İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar” adlı beynəlxalq elmi konfransın iştirakçılarının da olduğu dəyirmi masada müstəmləkə düşüncəsinin və müasir beynəlxalq münasibətlərin davamlılığı müzakirə edilib.

Tədbirə ADA Universiteti nəzdində İnkişaf və Diplomatiya İnstitutunun siyasi tədqiqatlar, təhlil və nəşrlər üzrə direktoru Damian Krneviç moderatorluq edib. BMT-nin Afrikaəsilli Xalqların Daimi Forumunun üzvü June Soomer müstəmləkəçilərin məqsədinin öz ölkəsini inkişaf etdirmək və zənginləşdirmək üçün müstəmləkə edilmiş torpaqlardan ehtiyatların çıxarılması olduğunu və onların heç birinin bu hərəkətlərini səhv hesab etmədiyini vurğulayıb.

ABŞ-ı təmsil edən İdarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin bildirib ki, tarixən müstəmləkəçilikdən əziyyət çəkən, səs hüququ olmayan xalqlar tədricən Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq platformalardan istifadə edərək öz inkişaflarına dair fikirlərini ifadə etmək imkanı əldə etdilər. O vurğulayıb ki, 1946-1960-cı illər arasında özünüidarə hüququ olmayan bəzi ərazilər siyahıdan çıxarıldı. Bu, xüsusilə Fransız ərazilərinə aid idi. Bu ərazilərin bəziləri yenidən baxıldıqdan sonra siyahıya qaytarıldı.

Cənub Sakit Okeanı Universitetində baş müəllim Lorenz Rudolf Gonschor öz növbəsində müstəmləkəçiliyin yalnız siyasi strukturlarda deyil, düşüncə tərzində də özünü göstərdiyini qeyd edib. “Məsələn, Ficinin paytaxtı Suva şəhərində küçələr İngilis müstəmləkə xadimlərinin adlarını daşıyır: Elizabeth street, Queen street, Victoria street, Gordon street. Ficiyə məxsus küçə adları olsa da, onlar yalnız ingilis rəhbərliyi ilə əməkdaşlıq edən liderlərlə əlaqəlidirlər. Bu, müstəmləkə düşüncəsinin bölgənin ictimai yaddaşına təsirinin davam etdiyini göstərir”, - deyə o bildirib.

Daha sonra fikir mübadiləsi aparılıb və qonaqları maraqlandıran suallar cavablandırılıb.

*XQ*

# DTX və DMX-nin birgə məlumatı

**Qanunsuz dini təbliğat fəaliyyətini təşkil edən əcnəbilər barədə hüquqi tədbirlər görülmüşdür.**

Xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikası ərazisində qanunvericiliyin tələblərini pozaraq dini təbliğat işi aparmaları ilə bağlı daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Miqrasiya Xidmətinin birgə həyata keçirdikləri tədbirlər nəticəsində başqa dövlətin ərazisində yerləşən dini mərkəzin üzvləri olan əcnəbilər - 1968-ci il təvəllüdlü Şeyx Məhəmməd Hənif (Shaikh Muhammad Hanif), 1981-ci il təvəllüdlü Kərim Bux (Kareem Bux) və 1968-ci il təvəllüdlü Çanna Tac Məhəmmədin (Channa Taj Muhammad) Azərbaycanda qeyri-ənənəvi dini cərəyana aid ideyaların təbliği istiqamətində fəaliyyət göstərmələri, qanunsuz qapalı dini yığıncaqlar və dini ayinlərin icrasını təşkil etmələri təsbit olunmuşdur.



Toplanmış materiallar əsasında, adları qeyd olunan xarici ölkə vətəndaşlarının “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə zidd fəaliyyət göstərmələri müəyyənləşdirilərək onların bu əməllərinin qarşısı alınmış və həmin şəxslər AR Miqrasiya Məcəlləsinin 79.1.2 maddəsinə əsasən ölkə hüdudlarından kənara çıxarılmışlar.

*XQ*

# Prezident İlham Əliyevin multivektorluğu, praqmatizmi və diplomatik məharəti

(əvvəli 1-ci səhifədə)

2003-cü ildə xalqın iradəsi ilə Prezident seçilənən İlham Əliyev qızıl kimi bu vaxtı strateji baxımdan ən yüksək səviyyədə dəyərləndirməyi bacardı. Amma bu hərbi-siyasi trekdə onun müdrik addımı Prezident seçiləndən dərhal sonra andiçmə mərasimində çıxış edərkən məhz ümummilli lider Heydər Əliyevin "sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə" xidmət edən siyasəti davam etdirməsi oldu. "Azərbaycanda bu siyasətin alternativi yoxdur, ölkəyə bütün sahələrdə böyük uğurlar qazandırıb və söz verirəm ki, bu siyasətə sadiq qalacağam, bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm", – deyən yeni Prezident alternativi olmayan bu siyasətin uzaq hədəflərini bəlli etməsə də, qarşısında hansı çətin vəzifələrin durduğunu əsla unutmadı.

23 illik bir tarixdə Azərbaycanın xarici siyasəti dəyişən qlobal mənzərədə praqmatizm, maraqlar tarazlığı və çeviklik prinsipləri üzərində quruldu. Bu strateji kursun baş memarı, təbii ki, Prezident İlham Əliyev idi. Onun rəhbərliyi ilə Azərbaycan nəinki regional, beynəlxalq mövqelərini möhkəmləndirə, həm də müstəqil gündəliyə və geniş xarici siyasət tərəfdaşlığına malik olmaqla Cənubi Qafqazda əsas oyunçuya çevrilə bildi.

Tarixə qovuşan bu illər ərzində Azərbaycan özünün xarici siyasət çevrəsində çoxvektorlu xətt, müxtəlif regional və qlobal oyunçular arasında balanslaşdırma yaratmağa nail oldu. İndi çəkinmədən təsdiq etmək olar ki, balanslaşdırma və praqmatizm respublika rəhbərinin xarici siyasətinin təməl daşlarıdır. Türkiyə ilə qardaşlıq əlaqələrindən istifadə etməklə, eləcə də yaxın vaxtlara qədər Moskva ilə dostluq əlaqələri vasitəsilə Azərbaycanın Cənubi Qafqazda əsas hakim regional aktora çevrilməsi məhz bu siyasətin mətiqi nəticəsidir. Amma Bakının xarici siyasət kursunda Şimali Atlantika vektorunun gücləndirilməsinə də ötəri yanaşmaq doğru olmazdı.

Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlığı xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasının müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyətidir. Bu gün elə bir sahə yoxdur ki, ölkələrimiz arasında əməkdaşlıq diqqətdən kənarda qalsın. Bu baxımdan hazırda Azərbaycan postsovet məkanında Türkiyə Cümhuriyyətinə ən çox yaxın olan 5 dövlətdən biridir. İndi Türkiyə üçün Azərbaycan MDB ərazisində "dayaq nöqtəsini" təmsil edir, çünki tarix boyu Türkiyə bu ölkə ilə, Dağlıq Qarabağ münaqişəsi ön planda olmaqla, bir sıra siyasi və strateji məsələlərdə güclü dialoq qurub.

Beləliklə, bu gün birmənalı olaraq təsdiq etmək olar ki, Türkiyə ilə münasibətlər Bakının xarici siyasətinin əsas strateji xəttini təşkil edir. Bu, təkcə 2 türk dövlətinin ittifaqı deyil, həm də dərin siyasi, hərbi və enerji inteqrasiyasının nümunəsidir. Bu kontekstdə Gürcüstandan keçən Azərbaycan–Türkiyə ana xətti boyunca infrastruktur dəhlizləri xüsusi önəm daşıyır. Azərbaycan–Türkiyə ittifaqı Türkiyənin Bakıya hərtərəfli dəstək verdiyi İkinci Qarabağ müharibəsindən sonra xüsusilə möhkəmləndi. 2021-ci ildə ölkələr hərbi müttəfiqliyi və strateji tərəfdaşlığı faktiki olaraq möhkəmləndirən Şuşa Bəyannaməsini imzaladılar.

Bu gün bir çox siyasi analitiklər Azərbaycanın çoxvektorlu xarici siyasətində Rusiya ilə münasibətləri "mürəkkəb tərəfdaşlıq və təsirlər balansı" kimi səciyyələndirir. Amma buna qədər postsovet məkanında mərkəzdənqaçma meyllərinə və Azərbaycanın xarici siyasətinin xüsusiyyətlərinə, o cümlədən Ermənistanla qarşıdurma münasibətlərinə baxmayaraq, Bakı Moskva ilə strateji münasibətləri qoruyub saxlaya bilib. Bu, müəyyən mənada iki ölkə rəhbərliyi arasında tərəfdaşlıq və dostluq münasibətləri, Rusiya və Azərbaycan xalqları arasında sıx iqtisadi qarşılıqlı əlaqələrlə bağlıdır. Bundan əlavə, SSRİ-nin dağılmasından sonra 2 dövlət sağlam münasibətlər üçün möhkəm müqavilə-hüquqi baza yaratmağa nail oldular. Hətta Rusiya Federasiyasının təsis qurumları səviyyəsində əməkdaşlığa dair 200-dən çox saziş və sənədlər imzalandı.

2020-ci ilə qədər Moskva ilə Bakının qarşılıqlı fəaliyyətində həll edilməmiş Qarabağ münaqişəsi mühüm problem olaraq qalırdı. Bu və digər səbəblərdən Azərbaycan Prezidenti İlham Əliyev müstəqillik və ehtiyatlılıq nümayiş etdirərək Rusiya Federasiyasının təşviq etdiyi inteqrasiya strukturlarında, məsələn, KTMT və ya Avrasiya İqtisadi İttifaqında iştirakdan yayındı. Münaqişənin ədalətli həlli uzandıqca Azərbaycanın NATO ilə qarşılıqlı fəaliyyəti artmağa başladı.

Amma Prezident İlham Əliyev Rusiyanın regionda mühüm oyunçu olaraq qaldığını çox gözəl bilir və ölkəsinin onunla balanslaşdırılmış siyasət aparmasını davam etdirirdi. Bu səbəbdən Ermənistanın Moskva ilə tarixən sıx əlaqələrinə baxmayaraq, Bakı Kremllə, xüsusilə də təhlükəsizlik və enerji sahələrində işgüzar əlaqələr qura bilib. Bu baxımdan 2020-ci ilin noyabrında Rusiyanın vasitəçiliyi ilə üçtərəfli bəyanatın imzalanması Cənubi Qafqazda yeni reallığın əsas elementi oldu.



Müstəqilliyinin Heydər Əliyev mərhələsindən başlayaraq, Azərbaycanın Qərblə əməkdaşlığının gücləndirilməsi aydın müşahidə edilən spektrlərdən biridir. Bu, təkcə NATO və Aİ ilə əməkdaşlığa doktrinal vurğu deyil, həm də bütün siyasi, iqtisadi və hərbi istiqamətlərdə daimi təmaslardır.

Avropa İttifaqının fəaliyyəti Şərqdən enerji təchizatı mənbələrini şaxələndirmək istəyinə əsaslanır, eyni zamanda Türkiyənin tranzit ölkəsi, enerji qovşağı kimi güclənməsinə kömək edir, çünki onun ərazisindən qaz Avropaya axır və "Türk axını" layihəsi çərçivəsində Rusiyadan da tədarük Rusiya–Ukrayna müharibəsindən sonra daha da genişləndirilir. Azərbaycan tərəfi üçün Aİ ilə qarşılıqlı fəaliyyətin faydası aşağıdakı sahələrdədir: enerji resurslarının satışından əldə olunan gəlir, beynəlxalq və daxili siyasi səviyyədə dividendlər.

Azərbaycan Respublikası Avro-Atlantik strukturları ilə tərəfdaşlığı, ümumilikdə, bu məkanın təhlükəsizliyinə, iqtisadi inkişafına və demokratiyaya dəstək verəcək vasitə kimi qəbul edir. NATO ölkələri Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq proqramında fəal iştirakını, alyansın əməliyyatlarına verdiyi töhfəni, islahatlar sahəsində əldə olunan tərəqqini xüsusi vurğulayırlar. Etiraf etmək lazımdır ki, Qərb istiqaməti bu halda heç də ən mühüm məqsəd deyil, alət rolunu oynayır və yalnız "yelləncək siyasəti" çərçivəsində balanslaşdırıcı amil olaraq qalır.

O da aşkardır ki, 44 günlük Vətən müharibəsindəki qələbədən və 2023-cü ildə Xankəndidə keçirdiyi antiterror əməliyyatından sonra Avropa İttifaqı və ABŞ-nin Azərbaycana münasibətlərində kardinal dəyişikliklər müşahidə edilməyə başlandı. Müharibə davam etdiyi günlərdə Avropa İttifaqının Xarici Əlaqələr üzrə Ali nümayəndəsi Josep Borrell Dağlıq Qarabağda hərbi eskalasiyanı pisləyərək Azərbaycanı əməliyyatları dərhal dayandırmağa çağırdı. Avropa Şurasının prezidenti Şarl Mişel də Bakı ilə Qarabağ ermənilələri arasında dialoqu təmin etmək üçün hərbi əməliyyatların dayandırılmasının vacibliyini vurğuladı. Hətta ABŞ-ın keçmiş dövlət katibi Entoni Blinken Azərbaycanı Dağlıq Qarabağda hərbi əməliyyatları dərhal dayandırmağa çağırdı.

Ancaq Azərbaycan Prezidenti İlham Əliyev bütün bu təhdid xarakterli çağırışlara kəskin reaksiya verərək, işğalçı Ermənistan təslim aktı imzalayana və ölkəsinin ərazi bütövlüyünü təmin edilənə qədər Zəfər yürüşünü davam etdirdi. 30 ilə yaxın Ermənistana Azərbaycanda işğal etdiyi əraziləri tərk etməyə yalançı çağırışlar edib, əslində bu istiqamətdə heç bir konkret addım atmayan Qərbin ikili standartı bu dəfə Prezident İlham Əliyevin qətiyyəti və cəsarətli diplomatiyası qarşısında fiaskoya uğradı. Bu, bir daha dünyada Qərb ədalətinin hansı kriteriyalara əsaslandığını üzə çıxarıb bu bloku rüsvay etdi.

Amma zamanla beynəlxalq aləmdə münasibətlər fərqli istiqamətlərdə davam etməyə başladı və Qərbin Azərbaycana yanaşmalarında ciddi yumşalma özünü göstərdi. Bu, ilk növbədə ABŞ-da Donald Trampın prezidentliyi ilə respublikaçıların hakimiyyətə gəlişindən sonra baş verdi. Artıq Avropa Birliyi də xarici siyasətində kardinal dəyişikliklər etmək məcburiyyətində qaldı. Məsələn, Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas Bakıda Prezident İlham Əliyevlə görüşdən sonra Brüssellə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişinin imzalandığını söylədi və mətbuata açıqlama verərək dedi: "Prezident İlham Əliyevlə söhbətdə biz Mərkəzi Asiya ilə əlaqələrin gücləndirilməsi və Azərbaycanın bu prosesdəki rolunu müzakirə etdik. Biz qarşılıqlı fayda və hörmət əsasında əməkdaşlığı inkişaf etdirəcəyik". Hətta AB rəsmisi əlavə etdi ki, o, Əliyevlə Aİ ilə Azərbaycan arasında yeni tərəfdaşlıq və əməkdaşlıq sazişi üzrə danışıqları bərpa etmək barədə razılığa gəlib. Nəhayət, Kallas etiraf etməli oldu ki, "Avropa İttifaqı Azərbaycanla münasibətlərini yüksək qiymətləndirir və bu əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır".

NATO-ya gəldikdə isə bu alyansla Azərbaycanın münasibətləri daha sıx əməkdaşlıq səviyyəsinə daxil olmaqdadır. Bu tendensiya Azərbaycan Respublikasının Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin may ayında NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri çərçivəsində qurumun rəhbər şəxsləri ilə keçirdiyi görüşlərdə bir daha nümayiş etdirilib. Hikmət Hacıyev qeyd edib ki, təkcə müdafiə və terrorizmi deyil, ümumən təhlükəsizliyin müxtəlif aspektlərini də nəzərdən keçirmək lazımdır: "Azərbaycan NATO ilə ictimai diplomatiya və saxta xəbərlərlə mübarizə sahəsində əməkdaşlıqda maraqlıdır. NATO birbaşa müdaxilə etməsə də, təşkilat regional sabitlik və təhlükəsizliyə yaxından nəzarət edir və Azərbaycan bunu yüksək qiymətləndirir.

Prezidentin köməkçisi NATO baş katibinin müavini Radmila Şekerinska və NATO baş katibinin şəxsi ofisinin direktorunun 1-ci müavini Lorenz Meyer-Minnemannla görüşlərində xüsusi vurğulayıb ki, Azərbaycan münaqişədən sonra regional əməkdaşlıqda maraqlıdır və ATƏT öz təcrübəsi ilə bu prosesdə iştirak edə bilər: "Biz müdafiə sahəsində islahatların aparılmasında NATO-nun Azərbaycana dəstəyini yüksək qiymətləndiririk. NATO sülh mexanizmi vasitəsilə regionda sülh və təhlükəsizliyə töhfə verə bilər".

Təbii ki, Avropa İttifaqı və ABŞ Azərbaycanın enerji və investisiya sektorunda mühüm tərəfdaşları kimi qəbul edilir. Aİnin əsas marağı Xəzər qazının Rusiyadan yan keçməklə tədarükünü təmin edən Cənub Qaz Dəhlizidir. Bakı enerji resurslarının etibarlı təchizatçısı kimi əhəmiyyətini gücləndirmək üçün xüsusilə Ukraynada müharibə başlayandan sonra geosiyasi vəziyyətdən məharətlə istifadə edib. ABŞ ilə münasibətlər daha təmkinlidir, lakin hərbi və antiböhran əməkdaşlığının elementlərini ehtiva etmir.

Beynəlxalq münasibətlər sisteminin transformasiyası kontekstində, xüsusən də ABŞ-ın yeni prezident Donald Tramp administrasiyası hakimiyyətə gəldikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev regional siyasət səviyyəsində, o cümlədən Türk Dövlətləri Təşkilatında və İslam dünyasında Azərbaycanın beynəlxalq siyasi çəkisinin və subyektivliyinin artırılmasına yönəlmiş addımlar atır.

Yeri gəmişkən, ABŞ Prezidenti Donald Tramp artıq Azərbaycan Prezidentinin təkcə regiondakı deyil, beynəlxalq aləm üçün vacib olan səylərini yüksək qiymətləndirir. O, İlham Əliyevin İsraillə Türkiyə arasında vasitəçi mövqeyini alqışlayır. Məlum olduğu kimi, tərəflər Suriyada "münaqişəsiz qarşılıqlı fəaliyyət mexanizmləri" yaratmaq üçün aprelin 9-da Azərbaycanda görüşüblər. ABŞ Prezidenti Donald Tramp Novruz bayramı münasibətilə İlham Əliyevə və Azərbaycan xalqına təbrikində, İsrailə göstərdiyi dəstəyə və dostluğa, yəni faktiki olaraq Tel-Əviv və Ankara arasında danışıqların təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Onu da vurğulamaq lazımdır ki, Azərbaycan dünyada yeganə ölkədir ki, eyni zamanda Türkiyənin ən yaxın müttəfiqi və İsrailin iki əsas müttəfiqindən biridir. Yəhudi dövlətinin nöqteyi-nəzərində Azərbaycan sadəcə dost ölkə və müttəfiq deyil, Yaxın Şərqdə və müsəlman dünyasında ABŞ-dan sonra ən mühüm müttəfiqdir. Bunu yəhudi siyasi xadimləri gizlətmirlər.

Amma məsələ heç də təkcə Azərbaycanın bu mövqeyi ilə bitmir. Azərbaycan Prezidenti ABŞ-ın yeni administrasiyası ilə uzunmüddətli strateji münasibətlərə ümid edir. Məhz bu ümidin nəticəsidir ki, Azərbaycan lideri çıxışlarının birində tutarlı arqumentlərlə Donald Trampı buna əmin olmağa çağırıb. Prezident İlham Əliyev Trampın ilk prezidentlik müddətini müsbət qiymətləndirdiyini bildirərək əlavə edib ki, onun 2-ci dönəmi daha aktiv olacaq. Hətta prezident Donald Trampın hakimiyyətə gəlişindən sonra artıq respublikanın ABŞ ilə münasibətlərində müsbət dəyişikliklərin olduğunu, Vaşinqtonun siyasətində "antiazərbaycan trendi"nin sonunu müşahidə etdiyini bəyan edib və bu yeni dövrü ölkələr arasında münasibətlərdə tərəfdaşlığın gücləndirilməsi üçün çox yaxşı fürsət adlandırıb. Təbii ki, Azərbaycan Prezidenti bunu ölkəsinin region üçün mühüm əhəmiyyətini qabardaraq bildirib: "Azərbaycanla güclü əlaqələr bu region üçün çox vacibdir. Çünki Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir... iqtisadi potensialı, enerji resursları, öz gücünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirmiş ordusu ilə və bütün digər siyasi əlaqələri ilə ABŞ üçün çox mühüm tərəfdaş ola bilər".

Prezident İlham Əliyevin bu il aprelin 9-da ADA-da keçirilən "Yeni dünya düzəninə doğru" adlı beynəlxalq forumda çıxışı zamanı bunu çox parlaq şəkildə bütün dünyaya bəyan etdi. Dünyanın əksər qabaqcıl ölkələrinin siyasi analitiklərinin və politoloqlarının diqqətlə seçilmiş suallarını cavablandıran İlham Əliyev bir sıra çox əhəmiyyətli, bir qədər də sərt və cəsarətli bəyanatlar verdi. Respublikanın rəhbəri Bakının regionda və onun hüdudlarından kənarda gedən geosiyasi, geoiqtisadi və sosial-mədəni proseslərdə fəal iştirakını, sanki dünya siyasətinin əzəmətli şəxslərinin xarici və daxili siyasətini nəzərə almadan təfərrüatı ilə təsvir etdi. Azərbaycan Prezidenti öz istəklərini Mərkəzi Asiya ilə Avropa arasında nəqliyyat körpüsü rolunu oynayan ölkəsinin unikal coğrafi, siyasi və iqtisadi mövqeyi ilə əsaslandırıb dedi: "Azərbaycandan yan keçməyin mümkün olmayacağını anlamaq üçün xəritəyə baxmaq kifayətdir".

Bununla razılaşmamaq əsla mümkün deyil. Həqiqətən də, Azərbaycan üzərindən "Bir kəmər, bir yol", "Orta dəhliz" ("Şərq–Qərb"), "Şimal–Cənub dəhlizi" kimi layihələr, magistral boru kəmərlərinin irimiqyaslı tikintisi həyata keçirilir. Onlar tanker tədarükü ilə müqayisədə daha etibarlı və ucuzdur, Avrasiyada malların və enerji resurslarının ticarəti üçün su yollarının dəyərini əhəmiyyətli dərəcədə azaldıb. Etiraf edək ki, bu gün Cənubi Qafqaz alternativ ticarət kommunikasiyalarının nəinki ABŞ-ın, Rusiyanın belə nəzarəti altında olmayan azsaylı regionlardan biridir. Bu regionun isə əsas aktoru İlham Əliyevin prezidenti olduğu Azərbaycandır.

Azərbaycan Prezidenti xarici siyasətində Çin amilinə xüsusi önəm verir. Bu əməkdaşlıq Çin tərəfindən də xüsusi diqqətdə saxlanılır. Hələ 2019-cu ildə Pekində keçirilən "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycanı Avrasiyada əsas tərəfdaşlardan biri adlandıraraq xüsusi vurğulayıb: "Siz Böyük İpək Yolunun üzərində yerləşirsiniz, bu yolun bərpasında təbii tərəfdaşsınız. Artıq bizim xalqlarımıza real fayda gətirən əməkdaşlığın gerçək nəticələri var".

Azərbaycan Prezidenti də öz növbəsində, bu gün Çini müxtəlif sahələrdə, o cümlədən yaşıl enerji sahəsində ən mühüm strateji tərəfdaş hesab edir. İlham Əliyevin ölkəsinin xarici siyasətinin bu trekinə verdiyi yüksək əhəmiyyət özünü onun bu ilin aprelində ÇXR-ə yüksək səviyyəli dövlət səfərində bir daha nümayiş etdirdi. Çinin Azərbaycandakı səfiri Lu Mey Azərbaycan Prezidentinin ölkəsinə səfərini şərh edərkən deyib: "Prosesin əvvəlindən sonuna qədər bu səfərdə iştirak edərək, ən çox hiss etdiyim odur ki, dövlət başçılarının diplomatiyası Çin–Azərbaycan münasibətlərinin inkişafı üçün bir kompas rolunu oynayır. İki dövlətin başçıları yaxşı iş münasibətləri qurub və şəxsi dostluq əlaqələrini möhkəmləndiriblər. Məhz onların strateji rəhbərliyi altında Çin–Azərbaycan münasibətləri daim yeni səviyyəyə qalxır və tarixdə ən yüksək səviyyəyə çatıb".

Azərbaycanın Asiya nəhəngi üçün hansı əhəmiyyət daşıdığına dəyər vermək üçün, fikrimizcə, təkcə ÇXR-in dövlət başçısı Si Cinpinin vurğuladığı aşağıdakı fikir yetərlidir: "Çin Azərbaycan ilə münasibətlərə strateji və uzunmüddətli perspektivdən baxır və inkişaf etdirir".

Azərbaycan Prezidenti bütün digər sahələrlə yanaşı, ölkənin müdafiə sənayesini də Çinlə çox perspektivli əməkdaşlıq sahəsi adlandırıb, çünki Azərbaycan silahlı qüvvələrini modernləşdirməkdə davam edir. Maliyyə institutları arasında Bakı əsas tərəfdaş kimi Çinin təşəbbüsü ilə yaradılmış Asiya İnfrastruktur İnvestisiya Bankından istifadə edir. Bununla yanaşı, İlham Əliyev uzun illərdir ki, beynəlxalq maliyyə qurumlarından faktiki müstəqil olan Azərbaycanın maliyyə sabitliyinə nail olub. Azərbaycan ya kredit portfelini tamamilə bağlayıb, ya da buna yaxındır. Digər tərəfdən, Azərbaycan Prezidenti Sinxua agentliyinə müsahibəsində beynəlxalq məsələlərdə də Çinlə əməkdaşlığı genişləndirməyə və 2 dövlətin maraqlarını birgə müdafiə etməyə hazır olduğunu vurğulayıb.

Azərbaycanın dövlət başçısı beynəlxalq balansı möhkəmləndirmək üçün əməkdaşlığın şərq istiqamətini də gücləndirməyə çalışır. Məsələn, Azərbaycan İranla hazırda Şərq–Qərb və Şimal–Cənub xətti boyunca axınların cəmləşdirilməsində öz maraqlarına əsaslanaraq, regiondankənar təsirə baxmayaraq, əməkdaşlıq qurmağa çalışır. Bu istiqamətdə görülən işlərin bir praktik göstəricisi də İran Prezidenti Məsud Pezeşkianın ötən ay Azərbaycana səfəri oldu. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev səfərin yüksək siyasi əhəmiyyət daşıdığını vurğulayaraq deyib: "Bu, ölkələrimizin qarşılıqlı hörmət, mehriban qonşuluq və ortaq regional məsuliyyət prinsipləri əsasında daha sıx əməkdaşlığa hazır olduqlarının mesajıdır".

Azərbaycan diplomatiyasından söz açarkən, unutmaq olmaz ki, Prezident İlham Əliyevin bu proseslərdə şəxsən iştirakı ölkəmizin xarici siyasətinin səciyyəvi xüsusiyyətinə çevrilib. Onun üslubu sərt məntiqi, əsaslandırılmış ritorikası və Ərdoğandan Putinə, Ursula fon der Leyendən Lavrova qədər geniş siyasi liderlərlə danışıqlar aparmaq bacarığı ilə xarakterizə olunur.

Uzun müddətdir ki, Prezident İlham Əliyev beynəlxalq arenada özünü tam müstəqil oyunçu kimi göstərir. Bu, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin həllindən və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam həllini tapdıqdan sonra daha yüksək səviyyədə özünü göstərməyə başladı. 2020-ci ildə Qarabağ Zəfərindən sonra Azərbaycanın mühüm regional aktor kimi nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirdi və 2023-cü ildə Qərbin tənqid və təhdidlərinə baxmayaraq, dövlət başçısı qətiyyətli iradə nümayiş etdirərək Xankəndidə uğurlu antiterror əməliyyatı həyata keçirərək, Azərbaycanın ərazi bütövlüyü üçün uzun müddət təhdid və təhlükəyə çevrilmiş qondarma erməni rejiminin fəaliyyətinə son qoydu.

Azərbaycan Prezidentinin diplomatik ustalığı ondadır ki, o böyük dövlətlər arasında tarazlığı məharətlə saxlayır, kəskin münaqişələrə cəlb olunmaqdan yayınır. Xarici təzyiqlərə baxmayaraq, Azərbaycan Rusiya–Ukrayna müharibəsində neytral qalır və anti-Rusiya sanksiyalarına qoşulmur. Bu, bizə həm Qərblə, həm də Moskva ilə etimadı qoruyub saxlamağa imkan verir.

İlham Əliyev beynəlxalq mediada və şəxsən özünün gedib, tez-tez çıxış etdiyi forumlarda (o cümlədən Davos və Münhen də daxil olmaqla) yüksək hazırlıq səviyyəsini və mövzuya dair biliklərini nümayiş etdirir. O bu beynəxalq platformalardan müdrikcəsinə istifadə edib, Azərbaycanı müasir, dünyəvi və iqtisadi cəhətdən etibarlı, investisiya və tərəfdaşlığa açıq dövlət kimi göstərir.

Bu qeydlərdən sonra qətiyyətlə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasəti çevik, praqmatik və çoxvektorlu strategiya nümunəsidir. Şərqlə Qərbin maraqları arasında tarazlıq yaratmaq bacarığı daxili konsolidasiya və diplomatik təşəbbüs nümayiş etdirməklə yanaşı, Bakıya beynəlxalq aləmdə hərtərəfli əhəmiyyətini gücləndirməyə imkan verir. Mövcud dinamika göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət modeli sabit və effektiv olaraq qalır.

***Məhərrəm SƏFƏRLİ,***
***Həsən bəy Zərdabi laureatı,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

# Azərbaycan xalqının siyasi identikliyi: azadlıqsevərlik



### III məqalə

## İki çevriliş cəhdi və "Əsrin müqaviləsi"

II məqalədə vurğuladığımız üç faktor – azərbaycanlılıq (mənəvi-psixoloji faktor), azərbaycançılıq (ideoloji məfkurə) və multikulturalizmin Azərbaycan ənənəsi (sosial birlik modeli) kompleks halında maraqlı toplumsal effekt yaratdı. Qısa müddətdə Azərbaycan cəmiyyəti dövlətin və ölkənin taleyi ilə bağlı prinsipial məsələlərdə birləşdi. Bu birliyin təməlində, yuxarıdakı üç faktordan göründüyü kimi, tarixi-mənəvi, ideoloji və sosial-siyasi məqamlar dayanırdı. Bu o deməkdir ki, ulu öndər Heydər Əliyev keçən əsrin 90-cı illərində cəmiyyətin birliyini yaratmaqla həm identikliyi, həm də dövlət quruculuğunda milliliyi ön plana çıxarmağı məharətlə bacardı.

Bizim mövzu üçün əhəmiyyətli olan məqam ondan ibarətdir ki, bu mürəkkəb prosesdə cəmiyyətin identikliyində (sosial identikliyin tərkib hissəsi kimi) siyasi identikliyin azadlıqsevərlik kontekstində qabardılması əsas yer tutdu. Yəni cəmiyyətin birlik identikliyinə dayanan siyasi identiklik müxtəlif komponentləri özündə birləşdirdi. Azərbaycan cəmiyyəti müstəqillik mərhələsində ilk dəfə olaraq özünün "siyasi kimliyi"nin konkret obrazını yarada bildi. Bu, tarixi bir dəyişiklik idi.

Düşündürücüdür ki, həmin dəyişiklik üç hadisənin yekun nəticəsi olaraq xalqın müstəqillik təcrübəsinin bir forması kimi reallaşdı. Politoloji baxımdan bu, mühüm özəllikdir. Bu prosesin dövlət identikliyi üçün olduqca prinsipial əhəmiyyəti olan hüquqi təsbiti yeni Konstitusiyanın qəbul edilməsində gerçəkləşdi. Bununla Ulu Öndər müasir dövrdə müstəqil dövlətin formalaşmasında baza rolunu oynayan identikliyi bütün şərtləri nəzərə alaraq sivil formada reallığa çevirdi.

Həmin yolu ölkə iki çevriliş cəhdini yaşamaqla keçdi. 1994-cü və 1995-ci illərdə iki dövlət çevrilişinə cəhd siyasi identikliyin sınağı və dövlətçilik fəlsəfəsinin keyfiyyətcə dəyişməsi mərhələsinin praktiki təcrübə forması olaraq təsəvvür edilə bilər. Çünki hər iki cəhdin qarşısı praktiki fəaliyyətdə xalq-lider həmrəyliyinin təmin edilməsi sayəsində alındı. Heydər Əliyev xalqa səsləniş etdi və milyonlar öz liderini dəstəklədi.

Bu, bütün dünyaya Azərbaycan cəmiyyətinin siyasi identiklikdə milli maraqları və müstəqilliyi hər şeydən önəmli hesab etdiyinin ilk ciddi siqnalı idi. Lider başda olmaqla xalq hər iki cəhdin qarşısını öz birliyi və həmrəyliyindən qaynaqlanan Vətən və müstəqilliksevərlik vasitəsi ilə aldı.

Maraqlıdır ki, çevriliş cəhdlərindən biri 1994-cü ilin 20 sentyabrında imzalanmış "Əsrin müqaviləsi"ndən çox keçməmiş (1994-cü il oktyabrın 2-də), digəri isə 1995-ci ilin martında oldu. Deməli, çevriliş cəhdləri Azərbaycanın dövlət kimi müstəqil geosiyasi seçim etməsinin qarşısını almaq üçün olmuşdu. Həmin anlamda "Əsrin müqaviləsi" müstəqil siyasətin rəmzi kimi dövlətçilik tarixində mühüm rol oynamışdır.

Nəhayət, cəmiyyətin birliyi və dövlət kimliyinin hüquqi təsdiqlənməsi aspektində 1995-ci il 12 noyabr Konstitusiyası böyük rol oynadı. Konstitusiyada yazılmışdır ki, "Azərbaycan xalqı özünün... suveren hüququndan istifadə edərək, təntənəli surətdə... niyyətlərini bəyan edir". Həmin niyyətlər sırasında cəmiyyətin və dövlətin identikliyi üçün həlledici olan aşağıdakı tezislər vardır: "Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək" (digər iki niyyət haqqında öncəki məqalələrdə yazmışıq).

Beləliklə, 1995-ci il Konstitusiyası faktiki olaraq xalqın siyasi identikliyi ilə müstəqil dövlətin identikliyini eyni məzmun kontekstində müəyyən etmişdir. Bu məqam müasir mərhələdə Azərbaycan cəmiyyətinin azadlıqsevərliyinin və müstəqil dövlətçiliyinin siyasi, geosiyasi və hüquqi təsdiqidir!

## 1995–2003-cü illər

Bu mərhələ müasir müstəqillik tarixində xalqın siyasi identikliyinin dövlətin müstəqilliyi və suverenliyi üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etməsi təcrübəsi baxımından çox önəmlidir. Zahirən bizə adi görünən bir sıra olaylar, əslində, dərinlərdə gedən və Azərbaycan xalqının öz kimliyini sübut etməsi bağlılığında prinsipial əhəmiyyət daşıyan məqamlardır. Onların bir qisminə nəzər salaq.

"Əsrin müqaviləsi" neft strategiyasının birinci mərhələsi idi. Bunun davamı kimi neftin ixrac marşrutlarının müəyyən edilməsi gəlməli idi. Onun üçün isə dünyanın nüfuzlu enerji şirkətlərinin Azərbaycana sərmayə qoymasını təmin etmək gərək idi. Dünyanın Azərbaycan xalqının siyasi kimliyinə tam əmin olması əsasında bu proses uğurla aparıldı. Burada ulu öndər Heydər Əliyevin siyasi-diplomatik məharəti və sarsılmaz qətiyyəti həlledici rol oynadı. Bütün maneələrə baxmayaraq (onlar haqqında kifayət qədər yazılmışdır) Azərbaycan xalqı və dövləti neft strategiyasını davamlı həyata keçirdi. Azərbaycanda qısa müddətdə bütövlükdə yeni olan iqtisadi infrastruktur yaradıldı. Artıq 2003-cü ilə lider-cəmiyyət-dövlət birliyi tam təmin edilmişdi.

Bu, həmin müddətdə Azərbaycan rəhbərliyinin ABŞ, Avropa, Rusiya, Çin və Türkiyə istiqamətlərində apardığı xarici siyasətlə daxili siyasətin əsas məqamlarının ahəngdarlığı sayəsində mümkün olmuşdu. Azərbaycan rəhbərliyi həmin müddətdə sonradan mükəmməl surətdə inkişaf etdirilən əməkdaşlıq platformalarının, beynəlxalq təşkilatlarla səmərəli əlaqələrin, müxtəlif istiqamətlərdə kommunikativ dəhlizlərin yaradılmasının təməlini yaratdı. Paralel olaraq, cəmiyyətdə həmrəyliyin dinamik inkişaf etdirilməsinin istiqaməti dəqiqləşdi. Həmin müddətdə 1991-ci ildə Naxçıvandan başlayan "həmrəylik hərəkatı"nın sosial, mənəvi, mədəni, siyasi və ideoloji fenomen kimi formalaşması başa çatdı. Xalqın və dövlətin identikliyinin ahəngdarlığı baxımından bu prosesin əhəmiyyəti böyükdür.

## Cəmiyyətin identikliyi və həmrəylik

Müasir dövrdə həmrəylik hərəkatı 1989-cu ildə Naxçıvanda SSRİ-İran sərhəd qurğularının sökülməsi ilə başladı. 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyev dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bu hadisə sonradan bütövlükdə Azərbaycan cəmiyyətinin siyasi, ideoloji, mənəvi birliyinin inkişafında çox mühüm rol oynadı.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu, Azərbaycan Respublikasında dövlət siyasətinin yeni bir istiqaməti idi. Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. İndi Diasporla İş üzrə Dövlət Komitəsi adlanır. 2002-ci ilin dekabrında azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında qanun qəbul edildi.

Bütün bu addımların əsl mahiyyətini Ulu Öndərin aşağıdakı fikirlərindən aydın görmək olar. Heydər Əliyev xaricdə yaşayan azərbaycanlılara etdiyi müraciətlərin birində ifadə edirdi:

"Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Bu fikirlərdə böyük bir dövlət xadiminin məharətlə "xalqın həmrəyliyi" ideyasını "xalqın siyasi identikliyinə" transfer etməsinin əsas məqamları izah olunur. Həmin məqamlardan görünür ki, Azərbaycan toplumunun birlik modelinin əsasını – 1) Azərbaycan dövlətçiliyinə, 2) Azərbaycan xalqının dilinə, dininə, milli-mənəvi varlığına hörmət və onların qorunması təşkil edir. Eyni zamanda, bu əsasların fonunda Azərbaycan cəmiyyətinin ümumbəşəri dəyərlərə hörməti də prinsipial əhəmiyyət kəsb edir.

Ümummilli liderin tezislərində cəmiyyətin identikliyinin müstəqil və suveren Azərbaycan Respublikası dövlətinin identikliyi çərçivəsində vacib olduğu xüsusi vurğulanır. Yəni Heydər Əliyev cəmiyyətin identikliyi ilə dövlət identikliyinin vəhdəti nümunəsini yaratmışdır.

## Milli ideya və cəmiyyət identikliyi

1993-cü ildən cəmiyyətdə başlayan proseslərdə başqa bir mühüm faktor mütləq nəzərə alınmalıdır. Həmin faktor milli ideyanın cəmiyyət identikliyində aparıcı yerə çıxarılması ilə bağlıdır. Bu addımın siyasi əhəmiyyəti milli ideyanın faktiki olaraq siyasi identikliklə müstəqil və tam suveren dövlət identikliyi arasında birləşdirici rol oynaması ilə əlaqəlidir. Bununla milli ideya azərbaycanlılığı, azərbaycançılığı və multikultural dəyərləri özündə ehtiva edən mühüm siyasi-ideoloji fenomen kimi dövlət quruculuğu prosesinə üzvi surətdə daxil edildi.

1993-cü ildə milli ideyanın ərazi bütövlüyünün bərpası məzmununda müəyyən edilməsi coğrafi bütövlüklə siyasi, mənəvi, mədəni və ideoloji bütövlüyün təmini arasında sıx əlaqə yaratmaq imkanı meydana gətirdi. Ərazi bütövlüyünün bərpası kimi milli ideya Azərbaycan cəmiyyətinin identikliyinin aparıcı faktoruna çevrildi.

Bu məqam bütövlükdə müasir mərhələdə müstəqillik, suverenlik və cəmiyyət identikliyi arasında münasibətlərin qurulması baxımından yeni hadisədir. O, Azərbaycanda cəmiyyət və dövlət identikliyinin qarşılıqlı əlaqələrinin ümumi semantik sərhədlərini strateji aspektdə dəqiqləşdirməyə yardım edə bilər.

2003-cü ildən sonra Azərbaycanın vurğulanan istiqamətdə topladığı təcrübə sonuncu tezisi əsaslandırmağa imkan verir. Məsələnin bu aspektinə XXI əsr Azərbaycan dövlətçiliyi tarixində xüsusi yeri və rolu olan II Qarabağ müharibəsindəki qələbə kontekstində nəzər salmaq faydalı olar. Vətən müharibəsindəki zəfər həm cəmiyyətin özünüidentifikasiya etməsi, həm də onun müstəqil və suveren dövlət identikliyi ilə vəhdət təşkil etməsi baxımından prinsipial əhəmiyyət kəsb edir.

Cəmiyyət identikliyinin bu mərhələsi birbaşa Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlıdır. Həmin məsələ yeni tarixi mərhələnin başlaması kontekstində xüsusi nəzəri və praktiki əhəmiyyət daşıyır. Onun üzərində geniş dayanmaq lazım gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Kütləvi məzarlıqlar ədalət tələb edir

**(əvvəli 1-ci səhifədə)**

2020-ci ilin 44 günlük Vətən müharibəsi Qarabağın işğalına son qoyduqdan sonra bu məsələyə də aydınlıq gəldi. Azad edilən ərazilərdə aparılan araşdırmalar nəticəsində acı həqiqətlər üzə çıxdı. 2021-ci ilin fevral ayından etibarən aparılan qazıntılar nəticəsində 23 kütləvi məzarlıq aşkarlandı. Burada tapılan insan qalıqlarının böyük hissəsi Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aiddir. İndiyə qədər 23 məzarlıqda 187 şəxsə aid olduğu ehtimal olunan meyit qalıqları üzrə 59 itkin-şəhidin şəxsiyyəti eyniləşdirilərək ailələrinə təhvil verilib.

İlk kütləvi məzarlıq 2021-ci il fevralın 17-də Şuşa rayonunun Daşaltı kəndində aşkar olunub. Bu ərazidəki iki kütləvi məzarlıqda 28 nəfərin qalıqları tapılıb. Müasir genetik identifikasiya laboratoriyası vasitəsilə aşkarlanmış qalıqların kimə aid olduğunu müəyyənləşdirmək istiqamətində ciddi iş aparılıb. Onlardan 14-nün şəxsiyyəti müəyyən edilib. Bu şəxslər arasında Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov da var.

Ümumilikdə, işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlardan 530-a yaxın şəxsə aid meyit qalıqları tapılaraq götürülüb. Bununla yanaşı, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın şəhər və rayonlarının ərazisində yerləşən qəbiristanlıqlarda tanınmadan dəfn edilmiş naməlum şəhid məzarlarında aparılmış ekskumasiya nəticəsində 183 şəxsə aid meyit qalıqları aşkar edilib. İtkin düşmüş şəxslərin yalnız 120-sinin qalıqları Ermənistan tərəfindən təhvil verilib.

***

Beləliklə, beynəlxalq hüquq normalarının insanların zorakı itkin düşmədən müdafiəsinə dair müddəaların tələblərinin mütəmadi olaraq pozulması göz qabağındadır. Mülki şəxslərin girov götürülməsi, onlara və hərbi əsirlərə qarşı qeyri-insani rəftar edilməsi, işgəncə verilməsi, məhkəmə hökmü olmadan edam olunmaları, insanların kütləvi şəkildə, dəfn adətlərinə riayət olunmadan kütləvi məzarlıqlarda basdırılmaları, habelə məzar yerlərinin gizlədilməsi və qəsdən məhv edilməsi kimi ağır cinayətlər törədilib.



Bu faktlar Ermənistan tərəfindən sistematik şəkildə törədilmiş müharibə cinayətlərinin sübutlarıdır. Onu da qeyd edək ki, tapılan məzarlıqlar yalnız kriminalistik sübutlar deyil, həm də vicdanın harayıdır. Onlar bizə xatırladır ki, unutmaq – təkrarlanmağa yol açmaqdır. Hər bir bağlanmamış məzar, hər bir adını bilmədiyimiz skelet, bir xalqa qarşı həyata keçirilmiş nifrətin və qəddarlığın izidir.

Bu həqiqətləri üzə çıxarmaqla Azərbaycan yalnız öz şəhidlərinə borcunu yerinə yetirmir. Eyni zamanda dünya ictimaiyyətinə insan hüquqlarının seçici yox, universal dəyər olduğunu göstərməyə çalışır. Bu proses həm texniki baxımdan çətin, həm də psixoloji olaraq ailələr üçün ağrılıdır. Lakin illərdir xəbər gözləyən valideynlər və yaxınlar üçün bu, həm də ədalətin bərpası deməkdir.

Bunlar həm də Cenevrə konvensiyalarının və beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Mülki şəxslərin girov götürülməsi, əsirlərə işgəncə verilməsi, məhkəmə hökmü olmadan edam edilməsi və onların kütləvi məzarlıqlarda dəfn olunması beynəlxalq cinayətlər kateqoriyasına daxildir.

***

Bakı taleləri məlum olmayan itkin düşmüş azərbaycanlılar haqqında məlumatlar almaq üçün İrəvanı dəfələrlə mina xəritələrini və məzar yerləri barədə məlumatları təqdim etməyə çağırıb. Çox təəssüf ki, Ermənistan tərəfi sözdə bir şey deyir, əməldə isə başqa hərəkət edir. Əgər Ermənistan bu humanitar prosesdə real əməkdaşlıq etsə, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi prosesi sürətlənə bilər. Bu, təkcə Azərbaycan üçün deyil, hər iki tərəf üçün vacib humanitar missiyadır. Çünki bütün bu faktların arxasında birbaşa insan taleyi dayanır. Hələ də yüzlərlə ailə övladının, həyat yoldaşının, atasının və ya anasının taleyindən xəbərsizdir. İnsan qalıqları aşkarlanan məzarlıq bir ailə üçün ümidlə qorxunun, gözlənti ilə inamsızlığın sərhədidir. Minlərlə gözüyaşlı ata-ananın, övladın, həyat yoldaşının, qardaş və bacının təskinlik tapması, gözlərinin yollardan yığılması deməkdir. Bu günlərdə Mingəçevir Şəhidlər xiyabanında dəfn olunan şəhid Sahil İbrahimovun qardaşı Cəmil İbrahimovun dedikləri bunun sübutudur: "32 ildir ki, həsrətlə qardaşımın yolunu gözləyirdik. Bu gün, nəhayət, həsrətimiz bitdi. Qardaşımızın nəşini son mənzilə yola sala bildik. Bu gün bizim üçün bir şükran günüdür".

Beyləqan rayonunda naməlum şəhid kimi dəfn edilmiş Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Muxtar Məmmədovun Sədərək rayonunun Dəmirçi kəndində vida mərasimində şəhidin bacısı Zərgül Məmmədovanın dedikləri: "Artıq qardaşımın üstündə ağlaya biləcəyim bir məzarı var. Qardaşımın tapılma xəbərini eşidəndə yaşadığım hissi sözlə ifadə edə bilmərəm". Bu sözlər isə Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhid Yusif Məmmədovun qardaşı Eldar Məmmədova məxsusdur: "Qardaşımı axırıncı dəfə 1994-cü ildə görmüşəm. Özüm onu hərbi xidmətə yola salmışam. O vaxt 11–12 yaşında olardım. Səfərbərlikdən sonra könüllü xidmətə getdi".

Eldar Məmmədov deyir ki, atası 10 il Yusifi axtarıb: "Atam Azərbaycanı qarış-qarış gəzmişdi. Fevralın 8-i döyüşə gediblər, sonra xəbər gəldi ki, itkin düşüb. O vaxtı onun nəşinin Gəncədə olduğunu dedilər. Onda ölənin kimliyi paltarı ilə müəyyən edilirdi. Paltar ilə onu gətirəndə atam tərəddüd etmişdi. Bir şəhidin məzarı üstündə 5 ailə dayanırdı, hərəsində də bir paltar".

Bəli, şəhidlik ən ali və şərəfli zirvədir. Bu zirvəyə yalnız müqəddəs amallar uğrunda çarpışan, cəsarətli, qəlblərində Vətənə, millətə böyük sevgisi olan insanlar yüksələ bilir. Bu gün dəfn olunan şəhidlərimiz məhz həmin oğullardandırlar.

***

Onu da qeyd edək ki, bu məsələ beynəlxalq humanitar problem kimi gündəmdədir. Məqsəd təkcə şəxsiyyətlərin müəyyən olunması deyil, həm də bu cinayətləri törədənlərin hüquqi cavabdehliyə cəlb edilməsidir. Bu, eyni zamanda, psixoloji sınaqdır. DNT analizi ilə övladın qalıqlarını tapmaq valideyn üçün həm ən dəhşətli xəbər, həm də illərlə gözlədiyi cavab, ən azı, bilmək, sağ qalmaq ümidini acı gerçəklə əvəzləmək deməkdir.

Bəli, regionda sülh və əməkdaşlıqdan danışmaq üçün əvvəlcə ədalət bərpa edilməlidir. Kütləvi məzarlıqlar, işgəncə faktları və insanlığa qarşı törədilmiş cinayətlər düzgün qiymətləndirilməsə, bu, sülh prosesinin təməlinə mina qoymaq deməkdir.

Təəssüf doğuran hal odur ki, beynəlxalq təşkilatlar – BMT, Avropa İttifaqı, Avropa Şurası, Amnesty International, Beynəlxalq Qızıl Xaç Komitəsi və digərləri bu məsələyə yetərincə diqqət ayırmır. İnsan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar Qarabağda tapılan kütləvi məzarlıqlar qarşısında susurlar. Bu sükut, əslində, cinayətə ortaq olmaq deməkdir. Bütün bu faktlar Ermənistanın sistematik şəkildə müharibə cinayətləri törətdiyini təsdiqləyir.

Bu ağır cinayətlərin beynəlxalq müstəvidə hüquqi qiymət alması vacibdir. Ədalət gec gələ bilər, amma gələcək. Qarabağda tapılan məzarlıqlar bu ədalətin çağırışıdır – qaranlıq keçmişin işığa çıxan səsi, susdurulmuş vicdanların hayqırtısıdır. Tapılan məzarlıqlar isə ədalət istəyir. O məzarlıqlardakı qurbanların ruhu ədalətin təmin olunmasını gözləyir. Ermənilərin Qarabağda törətdikləri müharibə cinayətləri beynəlxalq məhkəmələrdə araşdırılmalı, məsul şəxslər mühakimə olunmalıdır. Unutmayaq ki, tapılan məzarlıqlardakı qurbanların ruhu ədalətin təmin olunmasını gözləyir.

**PS .** Azərbaycanın və Ermənistanın itkin düşmüş şəxslər üzrə dövlət komissiyalarının nümayəndələri arasında növbəti görüş keçirilib. Görüş çərçivəsində tərəflər münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması ilə bağlı humanitar məsələləri müzakirə ediblər. Görüşdə məlumat mübadiləsi imkanları, axtarış tədbirlərinin əlaqələndirilməsi məsələləri nəzərdən keçirilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın Afrika diplomatiyasında yeni strateji yön

**XXI əsrin qlobal siyasi mənzərəsində səsindən çox susqunluğu "eşidilən" bir qitə var – Afrika. Neomüstəmləkəçilik reallıqları, iqtisadi asılılıq zəncirləri və beynəlxalq sistemin ədalətsizliyi bu qitəni hələ də səssiz mübarizənin mərkəzində saxlayır. Amma susqunluğun içindən yeni tərəfdaşlıq çağırışları yüksəlməkdədir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu müstəqil mövqe və Qoşulmama Hərəkatı çərçivəsində nümayiş etdirdiyi prinsipial siyasət Afrikaya siyasi tərəfdaşlıq və ideoloji həmrəyliklə baxışın nümunəsini yaradır.**



XXI əsrin əvvəllərindən etibarən beynəlxalq münasibətlər sistemində müşahidə olunan geosiyasi dəyişikliklər, yeni güc mərkəzlərinin formalaşması və çoxtərəfli diplomatiyanın əhəmiyyətinin artması dövlətlərin xarici siyasət strategiyalarında müxtəlif istiqamətlər üzrə balansyaratma zərurətini gündəmə gətirdi. Məhz bu kontekstdə Azərbaycan da öz xarici siyasət xəttində yalnız Qərb və Şərqlə deyil, eyni zamanda Qlobal Cənubla, xüsusilə də, Afrika qitəsi ilə əlaqələrinə yeni baxış sərgiləməyə başladı.

Azərbaycanın xarici siyasətində Şərq və Qərb vektorları uzun müddət strateji tərəfdaşlıqlarla, enerji layihələri və geoiqtisadi maraqlarla zəngin olub. Lakin müasir dövrdə beynəlxalq sistemin multipolyar xarakter alması, inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığın siyasi, iqtisadi və humanitar aspektlərdə genişlənməsi Cənub vektorunun da prioritet istiqamətlərdən birinə çevrilməsini zəruri etdi. Xüsusilə də, Afrika ilə münasibətlərin canlanması Azərbaycanın qlobal diplomatik fəallığının yeni mərhələyə keçdiyini nümayiş etdirir.

Məhz bu kontekstdə nəzərəçarpacaq məqamlardan biri Azərbaycanın Qoşulmama Hərəkatı (QH) çərçivəsində yürütdüyü aktiv və prinsipial mövqedir. Ökəmizin bu hərəkata münasibəti təkcə beynəlxalq təşkilatlarda iştirakdan ibarət deyil, həm də öz xarici siyasətinin mühüm strateji sütunlarından birini təşkil edir. Qeyd edə bilərik ki, bu yanaşma xüsusilə Qlobal Cənub daxilindəki geosiyasi güc balansının dəyişdiyi, yeni beynəlxalq nizamın formalaşdığı və çoxqütblülük meyllərinin gücləndiyi bir dövrdə Azərbaycanın mövqeyini gücləndirən mühüm vasitəyə çevrilib.

Azərbaycan QH daxilində yürütdüyü siyasətlə normativ xarakterli diplomatik xəttin təşəbbüskarı kimi çıxış edir. 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunandan etibarən Azərbaycan bu təşkilatda öz geosiyasi mövqeyini, iqtisadi potensialını və diplomatik fəallığını səfərbər edərək mühüm aktora çevrilidi. 2019–2023-cü illər ərzində sədrlik missiyası zamanı ölkənin diplomatik xətti daha konkret və sistematik xarakter almış, bu müddətdə hərəkat daxilində həmrəylik, suverenlik və beynəlxalq münasibətlərdə ədalətin təmin olunması kimi fundamental prinsiplər Azərbaycana məxsus təşəbbüslərin əsasını təşkil edib. Qlobal Cənubun, xüsusilə Afrika ölkələrinin beynəlxalq münasibətlərdə hələ də üzləşdiyi struktur problemlər – iqtisadi asılılıq, siyasi müdaxilə, borc tələsi



və informasiya qeyri-bərabərliyi – Bakının səsləndirdiyi narahatlıqlarla üst-üstə düşür. Azərbaycanın inkişaf modeli və müstəqil xarici siyasət kursu bu ölkələr üçün alternativ yol kimi təqdim olunur.

*

Prezident İlham Əliyevin sədrliyi dövründə QH platformasından istifadə edərək Qərbin bəzi dairələrinin ikili standartlara əsaslanan siyasəti, hegemon yanaşmaları və neomüstəmləkəçilik meylləri açıq şəkildə tənqid olundu və bu çıxışlar siyasi baxımdan strateji mahiyyət daşıyır: inkişaf etməkdə olan ölkələrin suverenliyinin və daxili siyasətinə hörmətin müdafiəsi Azərbaycanın öz təhlükəsizlik və diplomatik strategiyasının bir hissəsidir. Qoşulmama Hərəkatının əksər üzvlərinin Afrika ölkələri olması və onların müstəmləkəçiliklə mübarizə təcrübəsi Azərbaycanın bu qitə ilə yeni nəsil münasibətlər qurmaq üçün əlverişli şərait yaradır. QH Azərbaycanın Afrika ilə münasibətlərində "multivektor" siyasətinin həyata keçirilməsi üçün ideal platforma rolunu oynayır.

Nəticə etibarilə, Azərbaycan QH çərçivəsində qlobal ədalətsizliklərə qarşı həm söz, həm də əməl səviyyəsində təşəbbüskar aktora çevrilib. Azərbaycanın bu platformada aktiv iştirakı, həm də onun ideoloji baxımdan suverenlik və bərabərlik kimi dəyərləri beynəlxalq müstəviyə çıxarma və geniş beynəlxalq tərəfdaşlıq şəbəkəsi qurma niyyətinin bariz göstəricisidir.

Multilateralizmin gücləndirilməsi, eyni zamanda, Azərbaycanın çoxtərəfli diplomatiyada rolunun artmasına, siyasi kapitalının güclənməsinə və beynəlxalq təşkilatlarda Afrika ölkələrinin dəstəyini qazanmasına xidmət edir. 2022-ci ildə BMT İnsan Hüquqları Şurasına, 2023-cü ildə isə UNESCO-nun İcraiyyə Şurasına seçilməsində Afrika ölkələrinin verdiyi səs dəstəyi diplomatik uğurun göstəricilərindəndir. Azərbaycanın bu istiqamətdə təşəbbüsləri təhsil, humanitar yardım və inkişaf dəstəyi vasitəsilə Afrika ölkələrinin özünütəsdiq imkanlarına töhfə verilməsi, ölkəmizin "yardım alan yox, əməkdaşlıq edən tərəfdaş" modelini təşviq etdiyini göstərir. ADA Universitetində afrikalı tələbələr üçün yaradılan imkanlar, həmçinin humanitar təşəbbüslər çərçivəsində pandemiya dövründə Afrika ölkələrinə göndərilən tibbi yardımlar bu dəstəyin konkret nəticələrə əsaslandığını göstərir.

*

Afrika ilə münasibətlərin dərinləşməsində diqqətçəkən əsas amillərdən biri Azərbaycanın qlobal ədalətsizliklərə qarşı prinsipial və ardıcıl mövqeyidir. Klassik müstəmləkəçilik dövrünün formal olaraq sona çatmasından sonra "Qara qitə"nin bəzi dövlətləri siyasi müstəqillik əldə etsələr də, bu proses real iqtisadi və institusional azadlıqla müşayiət olunmadı. Qərb dövlətləri və onların nəzarətində olan transmilli korporasiyalar uzun müddət həmin ölkələrin strateji resurslarına nəzarəti əllərində saxlayaraq, daxili siyasi qərarvermə proseslərinə təsir imkanlarını qorumağa çalışdılar. Bu vəziyyət müstəqillikdən sonrakı dövrdə "neomüstəmləkəçilik" adlandırılan yeni bir asılılıq formatını doğurdu.

Məhz belə bir qlobal kontekstdə Azərbaycan Afrika dövlətləri ilə münasibətləri ortaq ədalət, bərabərlik və suverenlik dəyərləri əsasında qurur. Rəsmi Bakı postkolonial ədalət anlayışını müdafiə edən və beynəlxalq sistemdə qeyri-bərabər münasibətlərin aradan qaldırılmasını hədəfləyən fəal mövqe sərgiləyir, bu ölkələrlə həmrəylik münasibətlərinə xüsusi önəm verir. Bu yanaşma ölkənin çoxqütblü dünya nizamının formalaşmasına verdiyi dəstəyin, beynəlxalq hüquqa əsaslanan münasibətlər sisteminin tərəfdarı olmasının və "böyük güclərin diktəsi"nə qarşı çıxmasının açıq ifadəsidir.

Azərbaycan–Keniya münasibətləri yeni xarici siyasət fəlsəfəsinin real təzahürlərindən biridir. Bu münasibətlər yalnız ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, həm də neomüstəmləkəçiliklə mübarizədə ortaq mövqe və siyasi həmrəylik üzərində qurulan strateji tərəfdaşlıq modelidir.

Azərbaycanın ərazi bütövlüyü və Qarabağ məsələsində hüquqa və beynəlxalq ədalətə əsaslanan mövqeyinə Afrika ölkələrindən, o cümlədən Keniya tərəfindən göstərilən dəstək, əslində, qlobal miqyasda suverenlik prinsipinə əsaslanan dövlətlərarası həmrəyliyin təcəssümüdür. Məhz bu baxımdan 2025-ci il iyunun 3-də Nayrobidə – Keniya Respublikasının paytaxtında Azərbaycan səfirliyinin açılması mühüm diplomatik hadisə kimi qiymətləndirilməlidir. Azərbaycan və Keniya xarici işlər nazirləri bu təşəbbüsü iki ölkə arasında siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, eləcə də beynəlxalq platformalarda qarşılıqlı dəstəyin institusional əsaslara söykənməsi baxımından strateji əhəmiyyətli addım kimi səciyyələndirdilər. Nayrobidə diplomatik nümayəndəliyin fəaliyyətə başlaması həm də Azərbaycan üçün Şərqi Afrikada strateji mövqe tutmaq və region ölkələri ilə münasibətləri sistemli şəkildə inkişaf etdirmək baxımından geosiyasi əhəmiyyətə malikdir.

Beləliklə, Azərbaycan Afrikaya baxışında marja bazar və ya yardım obyekti kimi deyil, strateji tərəfdaş, qlobal ədalətin müdafiəçisi və çoxtərəfli diplomatiyada mühüm aktor kimi yanaşır ki, bu da Azərbaycanın XXI əsr xarici siyasətində Cənub vektorunun yeni fəlsəfəyə əsaslandığını – postmüstəmləkə dövrün geosiyasi etikasını formalaşdırmağa iddialı olduğunu ortaya qoyur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İrəvanda siyasi kəskinləşmə: "qılıncların çarpazlaşdığı" məqam

**Bir il sonra – 2026-cı ilin iyununda Ermənistanda növbəti parlament seçkiləri keçiriləcək. Məlumdur ki, Ermənistan parlament idarəetmə formasına malik dövlətdir. Bu üsul-idarəyə malik ölkələrdə parlament seçkilərində qalib gələn siyasi qüvvə hökuməti formalaşdırmaq hüququ əldə edir. Ölkədə sonuncu parlament seçkisi 2021-ci il iyunun 20-də keçirilib. Əgər gözlənilməz hadisə baş verməsə, gələn il bu vaxtlar ermənilər növbəti dəfə baş nazir seçəcəklər.**

Belə bir məşhur deyim var: "Növbəti seçkilərə hazırlıq səsvermə bitən gündən başlanır". Bu deyim Ermənistana da asanlıqla şamil oluna bilər. Müşahidələr son aylarda Hayastanda seçki prosesinə hazırlığın başladığını deməyə əsas verir. Həm iqtidar, həm də müxalifət düşərgəsi ciddi hazırlıq görür. Müxalifətin seçki hazırlığı ilə bağlı "Hraparak" qəzetinin yaydığı material diqqəti cəlb edir. Qəzet öz mənbələrinə istinadən yazır ki, bu düşərgə 2026-cı il seçkiləri ərəfəsində fəal şəkildə yerdəyişmə həyata keçirir. Nəşrin yazdığına görə, ölkənin birinci prezidenti Levon Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi (EMK) da fəallaşıb. Nəşr iddia edir ki, birinci prezidentin komandası respublikanın keçmiş ombudsmanı Arman Tatoyanla əməkdaşlıq etməyə çalışır.

Eyni zamanda, qəzet qeyd edir ki, əməkdaşlıq formatı yalnız müzakirənin ilkin mərhələsində olduğundan hər iki tərəf bu məlumatı inadla təkzib edir və razılıq əldə olunana qədər bunu inkar etmək və informasiya sızmasının qarşısını almaq zərurətinə inanırlar: "Tatoyan üçüncü prezident Serj Sarkisyanın rəhbərlik etdiyi Ermənistan Respublika Partiyası ilə sıx əlaqələrə malik olduğundan, iki eks-prezident arasında da danışıqlar aparılır. Bəzi şəxslər isə bu alyansda İrəvanın keçmiş meri Ayk Marutyanı təmsil edir, lakin onun yaxın ətrafı sabiq merin qarşıdan gələn seçkilərdə müstəqil iştirak etmək niyyətində olduğunu bildirib. Baş nazir Nikol Paşinyanın təmsil olunduğu hazırkı hökumət qərbpərəstlərə arxalanaraq növbəti seçkilərə hazırlaşmağa xüsusi önəm verir. Bu baxımdan politoloqlar Qurgen Simonyan və Karen Sarkisyanın şansları yüksək hesab olunur. Çünki onlar son illərdə hakimiyyətin propaqanda maşınının təbliğatçılarını – bir tribunadan digərinə tələsən gənc karyerapərəst politoloqları, analitikləri öz ətraflarına toplaya biləcəklər".

Qəzet xatırladıb ki, Simonyan təxminən bir il əvvəl yaradılan Ermənistan Meritokratik Partiyasının rəhbəridir. O, hakimiyyətin təbliğat kanallarının, o cümlədən İctimai Televiziyanın sevimli qonağıdır: "Ola bilsin ki, Qaqik Sarukyanın partiyası fəallaşsın, bəlkə də "Çiçəklənən Ermənistan" yox, yeni qüvvə kimi meydana çıxsın. Edmon Marukyanın "Parlaq Ermənistan" partiyası da müxtəlif məsləhətləşmələr aparır, lakin onun hansı alyansda yer tapacağı hələ bəlli deyil. Onun seçkilərdə müstəqil iştirak etməsi də çətin deyil".

Qeyd edək ki, Ermənistan parlamentin sədri Alen Simonyan ötən ayın sonunda baş nazirin və hakim partiyanın reytinqinin aşağı düşməsi fonunda sabiq prezident Robert Koçaryanın reytinqinin getdikcə artması ilə bağlı mətbuatda dərc olunan məqaləni şərh edərkən "Mülki müqavilə"nin 2026-cı il seçkilərindən sonra vahid hökumət formalaşdıracağını və islahatları davam etdirəcəyini bildirmişdi. Simonyan əmin etmişdi ki, hakim partiya bir ildən sonra xalqla ünsiyyətdə olacaq və "50+1" faiz səs alacaq. Eyni zamanda, o qeyd etmişdi ki, "Mülki müqavilə" seçkilərdə heç bir qüvvə ilə koalisiya yaratmağı planlaşdırmır.

Bu il yanvarın 25-də Nikol Paşinyan isə İctimai Televiziyaya müsahibəsində demişdi ki, iqtidarın növbədənkənar seçkilərlə bağlı planları yoxdur: "Ermənistan hökuməti növbədənkənar parlament seçkiləri keçirmək niyyətində deyil. Növbədənkənar seçkilərin keçirilməsinin mümkünlüyü ilə bağlı müzakirələr həmişə olub. Bununla belə, biz növbədənkənar parlament seçkiləri keçirməyi planlaşdırmırıq".

***

Yaranmış siyasi konfiqurasiya onu deməyə əsas verir ki, "Hraparak"ın məlumatı siyasi qüvvələr arasında qarşıdan gələn seçkilər ərəfəsində gərgin rəqabəti və mövqe axtarışlarını əks etdirir. Əməkdaşlıq formatının ilkin mərhələdə olması tərəflərin ehtiyatlı davranmasına və ictimaiyyət qarşısında bu prosesi inkar etməsinə səbəb olur. Tatoyanın S.Sarkisyanla yaxınlığı onun "Respublika" Partiyasına inteqrasiya ehtimalını artırır. İki keçmiş prezidentin dialoqu isə siyasi alyansların formalaşmasına işarədir. Ayk Marutyanın adının çəkilməsi müstəqil oyunçuların da bu prosesdə nəzərə alındığını göstərir. Onun müstəqil iştirak niyyəti hazırkı siyasi sistemdə üçüncü alternativin formalaşma potensialı deməkdir. Hökumətin qərbpərəst mövqeyi növbəti seçkilər üçün strategiyasını aydınlaşdırır. Qurgen Simonyan və Karen Sarkisyanın irəli çıxarılması hakimiyyətin loyal və ambisiyalı simalarla güclənmək cəhdidir. Hakimiyyətin propaqanda alətinə çevrilmiş gənc karyeristlər isə bu prosesdə aktiv rol alır. Bütün bunlar Ermənistanda seçki öncəsi siyasi xəritənin yenidən çəkildiyini göstərir.

Q.Simonyanın Meritokratik Partiyanın lideri kimi hakimiyyətin media resurslarında tez-tez görünməsi onun siyasi baxımdan dəstəkləndiyini göstərir. Bu, hökumətin yeni simalar üzərindən legitimlik axtarışına işarədir. Q.Sarukyanın "Çiçəklənən Ermənistan" əvəzinə yeni qüvvə ilə meydana çıxması isə müxalif düşərgədə yenilənmə cəhdlərini göstərir. Edmon Marukyanın partiyasının qeyri-müəyyən mövqeyi isə siyasi manevr imkanlarının məhdudluğunu üzə çıxarır. Ümumilikdə, siyasi meydanda yeni konfiqurasiyalar formalaşmaqdadır.

***

Ermənistandakı daxili siyasi durumla, daha doğrusu, seçkilərə hazırlıqla bağlı iyunun 4-də "ArmenianReport" saytında yerləşdirilmiş "Paşinyan və müxalifət qılınclarını çarpazlayıblar" sərlövhəli analitik yazı da diqqəti cəlb edir. Yazıda bildirilir: "Məlum olduğu kimi, gələn il Ermənistanda parlament seçkiləri keçiriləcək. Bu seçkilər bizim hər birimiz üçün taleyüklüdür. Bu da başadüşüləndir. Çünki ölkənin, xalqın gələcəyini, yolunu seçkinin qalibi müəyyən edəcək. Deyəsən, sözün əsl mənasında, bütün siyasi qüvvələr 2026-cı il seçkilərinə hazırlığa başlayıblar. Hakimiyyət, açıq desək, parlaq gələcəyi olmayan, hətta kriminal şəxslərin bu gün çoxluq təşkil etdiyi "Mülki müqavilə"nin idarə heyətini seçkilər ərəfəsində yeniləmək, hətta gəncləşdirmək niyyətindədir.

İqtidaryönlü KİV-in məlumatına görə, bu kontekstdə partiya üzvlərinin davranışları, eləcə də onların korrupsiya sxemlərində mümkün iştirakı ilə bağlı yayılan şayiələr və ittihamlar idarə heyətinin iclaslarında fəal müzakirə olunur". Bildirilir ki, "rəngbərəng" müxalifət də yatmayıb: "Çox yaxında ölkənin siyasi meydanında sabiq ombudsman Arman Tatoyanın və Dövlət Gəlirləri Komitəsinin keçmiş rəhbəri David Ananyanın rəhbərliyi altında "yeni" müxalifət qüvvəsinin meydana çıxacağı gözlənilir. Müxalifət mətbuatı maraqlı plan təqdim edir: nədənsə onlar əmindirlər ki, yeni partiyanın liderləri "böyük nüfuzlarına və xalqın etimadına bel bağlayırlar". Üstəlik, Artur Vanetsyanın "Vətən" partiyasının 2026-cı il seçkilərinə müstəqil şəkildə gedəcəyi ilə bağlı şayiələr var. Eyni zamanda, hazırkı hakimiyyətin əleyhdarları hesab edirlər ki, nə Tatoyan–Ananyan partiyası, nə də "Vətən" "Mülki müqavilə" ilə heç bir sövdələşməyə getməyəcək".

Yazıda əksini tapan fikirlər Ermənistanda 2026-cı il seçkiləri öncəsi siyasi aktivliyin artdığını və gərgin rəqabət şəraitinin formalaşdığını göstərir. Bütün siyasi qüvvələrin seçki hazırlığına başlaması qarşıdakı mübarizənin kəskin və taleyüklü olacağını təsdiqləyir. Hakim "Mülki müqavilə" partiyasının idarə heyətində dəyişiklik planları iqtidarın daxili təmizlənmə və imic yenilənməsi cəhdidir. Gəncləşmə niyyəti isə siyasi enerjini və ictimai dəstəyi bərpa etmək məqsədi daşıyır. Lakin kriminal keçmişi olan və korrupsiyada adı hallanan şəxslərin partiyada mövcudluğu hakimiyyətin nüfuzuna xələl gətirir. Bu hallar idarə heyətində narahatlıq doğurur və daxili gərginliyi artırır. Ümumilikdə, bu dinamika seçkiyə qədər qüvvələr balansının tez-tez dəyişə biləcəyini göstərir.



***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**



– Ermənistanda müşahidə olunan siyasi fəallıq qarşıdan gələn parlament seçkilərinin ölkə üçün ciddi dönüş anı ola biləcəyini göstərir. Siyasi düşərgələr arasındakı yerdəyişmələr və gizli danışıqlar yeni alyansların formalaşmaq üzrə olduğunu göstərir. Xüsusilə keçmiş ombudsman, qatı azərbaycanofob və türkofob Arman Tatoyanın həm Serj Sarkisyanın, həm də Levon Ter-Petrosyanın çevrəsinə yaxınlığı müxalifət qüvvələri arasında konsolidasiyaya işarədir. Ayk Marutyan və Artur Vanetsyan kimi fiqurların adının çəkilməsi isə siyasi alternativlərin sayının artdığını göstərir. Amma nəzərə almaq lazımdır ki, Tatoyan və Vanetsyan cəmiyyətdə böyük nüfuza malik deyillər.

Xüsusilə milli təhlükəsizlik xidmətinin sabiq rəhbəri olan Vanetsyan Rusiyaya bağlı şəxs hesab olunur. Bu yaxınlarda Moskvaya səfər etməsi onun növbəti səhvi idi. Çünki hazırda erməni cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsi mövcuddur. Digər tərəfdən, hamı bilir ki, həm Tatoyan, həm də Vanetsyan Serj Sarkisyanın adamlarıdır. Təsadüfi deyil ki, Vanetsyanın partiyası 2021-ci il iyunun 20-də növbədənkənar seçkilərə Sarkisyanla tandemdə getmişdi. Onların ayrıca qüvvə kimi parlamentə düşəcəkləri də inandırıcı deyil.

Doğrudur, daha Paşinyan 2018-2019-cu illərdəki populyarlığa malik deyil. Amma bütün bunlara baxmayaraq, o, yenə də Koçaryan, Sarkisyan, Vanetsyan, Tatoyan və Ohanyandan daha reytinqlidir. Paşinyanın qərbpərəst kursunu davam etdirməsi fonunda "Mülki müqavilə" partiyasının gəncləşmə planı həm imicə, həm də daxili risklərə cavabdır. Lakin bu partiyanın daxilində korrupsiya şübhələri və kriminal keçmişli fiqurların olması seçki kampaniyasında zəif nöqtə ola bilər.

# “Məxməri inqilab”ın rəzillik mərhələsi

(əvvəli 1-ci səhifədə)

Yəni Eçmiədzin deməlidir ki, II Qaregin övlad sahibidir, ya yox? Yaxud övlad sahibidirsə, postunda qalması mümkündürmü? Bu suallar fonunda ortaya bir həqiqət çıxır – Ermənistanda bir çox şeylər saxta və səmimiyyətdən uzaq olduğu kimi, dinə yanaşma da eyni cürdür. Əlbəttə, rəzil və miskin durumdur. Paşinyanın ifşa etdiyi məhz budur. Ancaq o da görünür ki, Ermənistanda bir çoxları mövcud reallıqla baş-başa qalmaq istəmir.

Nikol II Qareginin qanunsuz övlad sahibi olmasından söz açır, ancaq elə təsəvvür var ki, kimlərsə məsələni ört-basdır etməkdə israrlıdır. Bunun üçün müxtəlif tezislər uydurulur. Guya, Nikol Azərbaycanın və Türkiyənin sifarişini yerinə yetirirmiş, Ermənistanın dövlət əsaslarını parçalamaq niyyətində imiş və sair.

Əlbəttə, Paşinyanın kilsəni, xüsusən II Qaregini neytrallaşdırmaq istəyinin olduğu məlumdur. Bunu tam əminliklə söyləmək mümkündür. O Qaregin ki, Nikol indiyədək onu postundan uzaqlaşdırmaq üçün çox vasitələrə əl atıb. Ancaq istəyinə çata bilməyib. İndi isə baş nazir din xadimini, belə demək mümkünsə, öz müqəddəsliyi ilə vurur. Durum ciddidir. Bir anlıq təsəvvür edək ki, II Qareginin övladının olmadığı üzə çıxır. O zaman Paşinyan çox pis vəziyyətə düşəcək. Hətta elə pis vəziyyətə ki, onun fəsadları hakimiyyətinin belə laxlamasına gətirəcək. Hər halda, Nikol Ermənistanın baş keşişinə qarşı ittiham irəli sürəndə bunları düşünməmiş olmazdı. O, əbəs yerə özünü biabır etmək istəməz.

Bəli, Paşinyan kilsəni və II Qaregini neytrallaşdırmaq istəyində məntiq və prinsip var – keşiş ailə qurmamalı, övlad sahibinə çevrilməməlidir. Əgər o, dünyəvi həyata keçmək istəyirsə, din xadimliyindən uzaqlaşmalıdır. Ancaq tələbin səslənməsinədək olan durumu nəzərə almalıyıq. Yəni, Nikol konkretliyə birdən-birə keçmədi, bir növ, şans verdi. O, mayın 29-dan başlayaraq özünün “Facebook” səhifəsində ruhanilik üzərinə “səlib yürüşünə” çıxanda ümumi şəkildə yazdı ki, bakirlik andını pozanlar öz xoşları ilə tutduqları postdan uzaqlaşsınlar, rüsvay duruma düşməsinlər.

Aydındır ki, baş nazir II Qareginə eyham vururdu. Bəs ikinci istefa verə bilərdimi? Hesab edirik ki, bu, müəyyən mənada mümkün idi. Məsələn, II Qaregin populizmi işə salaraq deyə bilərdi ki, ali hakimiyyət nümayəndəsinin kilsənin timsalında müqəddəsliyə hörmətsiz yanaşdığı ölkədə baş keşiş olmaq istəmir. Bu, erməni cəmiyyətinin dini hisslərinə daha ciddi təsir göstərə bilərdi. Hətta, Nikola qarşı hərəkatın başlaması da mümkün idi.

Ancaq II Qaregin taxtdan möhkəm yapışmaq və mübarizə aparmaq qərarına gəldi. Bu, onun iddiasından və hikkəsindən qaynaqlanır. İddia və hikkə o qədər böyükdür ki, II Qaregin və tərəfdarları özlərini həqiqətin təhrifinə kökləyiblər. Ona görə də baş keşişlə övladının olub-olmadığını aydınlaşdırmaq istəyən yoxdur. Normalda bu soruşulmalıdır. Axı ittiham irəli sürən adi biri yox, baş nazirdir.

*

Məqsədimiz heç də Nikola haqq qazandırmaq deyil. Çünki baş nazirin indiki durumda ruhaniyyətə qarşı cəbhə açmasının, nalayiq ifadələrə yol verməsinin erməni mənəvi dünyası üçün son dərəcə acınacaqlı durum formalaşdırdığı bəllidir. Acınacaqlı durum Paşinyanı, az qala, kafirlikdə günahlandıranların meydana atılmasıdır. Şübhəsiz, mövcud kəsim, bilavasitə, kilsə tərəfindən idarə olunur. Nikolu “gilyotinə çəkmək” istəyənlərin bir qismi isə revanşist və şovinistlərdir ki, onların da mənəvi sığınacaq yeri məhz ruhanilikdir. Yəni, belələri hakimiyyətdə olduqları müddətdə çıxardıqları hər cür oyunbazlığın, törətdikləri ən sərsəm əməllərin bəraətini II Qareginə sığınmaqda görürlər. Durum orta əsrlər dövrünə xas “kilsə günahı satır, sonra bağışlanmasını” deyimini xatırladır.

Əlqərəz, baş nazirə dinsizlik damğası vuranlar onun kilsəni hədəfə alan bəyanatları ilə əlaqədar Korrupsiyanın Qarşısının Alınması Komissiyasına şikayət təqdim ediblər. Bu barədə məlumatı Ermənistan Vəkillər Akademiyasının rektoru Ara Zohrabyan verib. Şikayətdə bildirilib ki, Paşinyan vəzifəsini icra edərkən “Dövlət qulluğu haqqında” qanunla müəyyənləşmiş davranış prinsiplərinə riayət etməyib. Bu prinsiplər isə xalqa xidmətin dərki, ictimai maraqlara sadiqlik, nəzakətlilik və hörmət, vicdanlılıq və obyektivlikdir. Sən demə, Nikol qaydaları pozub, diskriminasiya xarakterli münasibəti, kobud və kinayəli ifadələri ilə ali rütbəli din xadimlərinə — xüsusən II Qareginə və yepiskop Mikael Adçapaxyana qarşı hörmətsizlik edib, həmçinin Erməni Apostol Müqəddəs Kilsəsinin müstəqil idarəçiliyinə müdaxilə cəhdi göstərib.

*

Yeri gəlmişkən, qeyd edək ki, Erməni Apostol Müqəddəs Kilsəsi barədə Ermənistan konstitusiyasında da müvafiq müddəa yer alıb. Daha doğrusu, sənəddə kilsənin statusu və rolu xüsusi şəkildə təsbit olunub. Ən son 2015-ci il dəyişikliklərinə əsasən, məsələ konstitusiyanın 8.1-ci maddəsində əksini tapıb. Həmin maddə Ermənistanın dünyəvi dövlət olduğunu bəyan etməklə yanaşı, Erməni Apostol Kilsəsinin milli kimlik və mədəniyyətin qorunmasındakı müstəsna rolunu tanıyır, eyni zamanda digər dini təşkilatların fəaliyyət azadlığını təmin edir və dövlətlə kilsə arasında olan münasibətlərin qanunla tənzimlənə biləcəyini vurğulayır. Əlavə olaraq, 2007-ci ildə qəbul edilmiş “Ermənistan Respublikası ilə Erməni Apostol Müqəddəs Kilsəsi arasında münasibətlər haqqında” qanun da var ki, sənəd sözügedən kilsənin hüquqi statusunu, dövlətlə münasibətlərini və fəaliyyət sahələrini daha ətraflı şəkildə müəyyənləşdirir.




Qanun kilsənin milli mədəniyyətin qorunması, dini təhsil, xeyriyyəçilik və digər sahələrdəki fəaliyyətlərini tənzimləyir. Paşinyana qarşı cəbhə açanlar isə baş nazirin bu sənədin də müddəalarını pozduğunu iddia edirlər. Onlar bildirirlər ki, qanunun 2-ci hissəsinin 2-ci bəndinə əsasən, Ermənistan Respublikası Erməni Müqəddəs Apostol Kilsəsinin iyerarxiyası daxilindəki özünüidarəsini tanıyır. Deməli, gözlənilir ki, Korrupsiyanın Qarşısının Alınması Komissiyası məsələ üzrə araşdırma başlatsın və Paşinyanın davranış qaydalarını pozduğuna dair nəticəyə gəlsin.

*

Sonda əvvəldə vurğuladığımız məqama qayıdaq. Məsələ ondadır ki, Paşinyan-kilsə mübarizəsi fonunda yaşananlar 2019-cu ildə baş nazirlə Konstitusiya Məhkəməsinin o zamankı sədri Hrayr Tovmosyan arasında yaşanmış qarşıdurmanı xatırladır. Diqqət yetirək, Paşinyan kilsəni köhnənin qalığı hesab edir və fikrində haqlıdır. Zamanında Tovmosyan da təxminən indi II Qareginin üzləşdiyi durumla üzləşmişdi. Paşinyan onu sabiq rejimin nümayəndəsi və korrupsiya sisteminin müdafiəçisi kimi qələmə vermişdi. Nikol, hətta Tovmosyanın vəzifəyə saxta yolla seçildiyini də iddia etmişdi. Buna cavab olaraq, sabiq sədr baş nazirə qarşı məhkəmə iddiası qaldırmış, ondan üzr istəməsini və böhtan xarakterli ifadələrin təkzib edilməsini istəmişdi.

Ümumən, Paşinyan və komandası Konstitusiya Məhkəməsinin tərkibini dəyişdirmək məqsədilə referendum keçirmək təşəbbüsü ilə çıxış etmişdi. 2020-ci ilin fevralında Ermənistan parlamenti Konstitusiya Məhkəməsinin sədrinin və üzvlərinin vaxtından əvvəl istefa vermələri tələbi ilə referendum keçirilməsi barədə qərar çıxarmışdı. Sabiq prezident Armen Sarkisyan da məsələyə dair sərəncam imzalamışdı.

2020-ci ilin iyun ayında Ermənistan parlamenti 2015-ci il konstitusiya islahatlarından əvvəl təyin olunmuş Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddətlərini məhdudlaşdırmaq üçün konstitusiya dəyişiklikləri qəbul etmişdi. Bu dəyişikliklərə əsasən, H.Tovmasyan sədr vəzifəsindən uzaqlaşdırılsa da, daha 10 il müddətinə sıravi hakim kimi fəaliyyətini davam etdirmək hüququnu saxlamışdı. Dəyişikliklər Tovmasyan və digər hakimlər tərəfindən siyasi motivli addım kimi qiymətləndirilmiş və onlar Avropa İnsan Hüquqları Məhkəməsinə üz tutmuşdular. Sözügedən məhkəmə isə konstitusiya dəyişikliklərinin icrasını dayandırmaq üçün müvəqqəti tədbirin tətbiqi tələbini rədd etmişdi.

Digər tərəfdən, Tovmasyan 2010–2014-cü illərdə ədliyyə naziri vəzifəsində çalışdığı dövrdə səlahiyyətlərindən sui-istifadədə ittiham olunmuşdu. 2024-cü ilin sentyabrında məhkəmə onu iki maddə üzrə təqsirli bilsə də, cinayət məsuliyyətindən azad etmişdi. Çünki iş üzrə cinayət məsuliyyətinə cəlbetmə müddəti başa çatmışdı.

Başlıca məqam isə budur ki, H.Tovmasyanın vəzifədən uzaqlaşdırılması Ermənistanın 2018-ci ilin “məxməri inqilab”ından sonra həyata keçirilmiş islahatların və siyasi dəyişikliklərin bir hissəsi kimi qiymətləndirilir. Hazırda II Qareginə qarşı kampaniya da əslində Paşinyan hakimiyyətinin siyasi dəyişiklik əzminin növbəti təzahürüdür. Bu dəyişikliyə ehtiyac isə böyükdür. Çünki 2026-cı ildə Ermənistanda parlament seçkiləri keçiriləcək.

Tam əminliklə deyə bilərik ki, Paşinyan və tərəfdarları indidən prosesə hazırlığa başlayıblar. Onlar ölkənin eks rəhbərliyinin hərəkətə keçdiyini görürlər. O rəhbərliyin ki, ideoloji ruporları rolunda çıxış edən məhz II Qaregindir. Deməli, Nikol maksimum dərəcədə onu cəmiyyətin gözündən salmalıdır. Bunun üçün baş nazirin seçdiyi üsul isə bir fürsətdir. Onu da nəzərə alaq ki, Nikol fürsəti dəyərləndirmək üçün hər cür həyasızlığa baş vurmaqda püxtələşib.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Replika

# Şahramanyan və Poprişin

## *Yaxud İstintaq Komitəsindən dəlixanaya uzanan yol*

**Dahi Nikolay Qoqolun “Dəlinin gündəliyi” povestində baş qəhrəman Poprişin tədricən ağlını itirir və özünü İspaniya kralı elan edir. O, əslində, adi kiçik məmurdur, lakin uydurma və xəyal dünyasında yüksək vəzifəli, güclü bir şəxs olduğunu düşünməyə başlayır. Əsərdə şizofrenik dezinteqrasiyanın, sosial təcridin və sistemin insan psixikasını necə əzdiyi incə bir satira ilə verilir.**



Əslində, Ermənistanda da oxşar durum müşahidə edilir. Söhbət konkret olaraq ölkədəki “Artsax” mövzusundan gedir. İndi necə düşünək? Düşünək ki, hazırda Ermənistan hakimiyyəti poprişinlərlə məzələnir? Hərçənd erməni hakim komandasının, ilk növbədə, öz daxilindəki şizofrenlərdən qurtulması vacibdir. Daha doğrusu, onun özünün islahı mütləqdir.

Əlqərəz, artıq canını tapşırmış Qarabağdakı separatçı rejimin qondarma “prezidenti” Samvel Şahramanyan Ermənistan İstintaq Komitəsinin Hərbi İstintaq Baş İdarəsində dindirilib. Bu barədə məlumatı vəkili Roman Eritsyan verib. Onun sözlərinə görə, Şahramanyan “Hərbi xidmətdə səhlənkarlıq” və “Döyüş vasitələrinin düşmənə verilməsi və ya tərk edilməsi” maddələri üzrə başlanan cinayət işi çərçivəsində şahid statusundadır. Amma hələlik...

Qeyd edək ki, belə bir cinayət işinin başlanmasına səbəb separatçı rejimin “müdafiə naziri” olmuş Samvel Babayanın Ermənistanın İctimai Televiziyasında səsləndirdiyi bəyanatlar və 2023-cü il 6 oktyabr tarixli müraciəti olmuşdur. Babayan “Artsax”ın keçmiş və “hazırkı” rəhbərlərini “ölkəni” təslim etməkdə və vəzifə səhlənkarlığında ittiham etmişdir. O, bu şəxslərin Ermənistan ərazisinə daxil olduqları anda cinayət məsuliyyətinə cəlb olunmalarının vacibliyini vurğulamışdı.

Xatırladaq ki, daha əvvəl “Armlur.am” saytı öz mənbələrinə istinadən məlumat yaymışdı ki, S.Şahramanyan 5–6 dəfə Ermənistan İstintaq Komitəsinin Hərbi İstintaq Baş İdarəsinə dindirilməyə çağırılıb və onun barəsində həbs-qətimkan tədbiri seçilməsi ehtimalı istisna olunmur. Onu da bildirək ki, sözügedən cinayət işi hələ 2023-cü ildə açılmışdı. Lakin S.Şahramanyan ilk dəfə yalnız iki il sonra, yəni 2025-ci ildə dindirilir. Halbuki, ilkin mərhələdə dindiriləcək ilk şəxslərdən biri olmalı idi. Elə bu məqam, istər-istəməz, suallara yol açır. Niyə Samvel, nəyə görə indi?

Məsələ ondadır ki, Ermənistanda son zamanlar “Artsax” mövzusu intensivlik əldə edib. Şahramanyanın da separatçı rejimin guya buraxılmadığını iddia edən fikirləri olub. Üstəlik, kimlərsə qurumun “parlament” sədrini, “prezidentini” seçmək qərarına gəliblər. Bütün bunlar rəsmi İrəvan tərəfindən idarə olunan proses deyil. Çünki onun öz avantürizm gündəmi və məqsədi var. Şahramanyan və onun kimilərinin ortaya düşmələri isə həmin gündəm və məqsədlərə zidd təmayüldür.

Yeri gəlmişkən, Ermənistanda davam edən hakimiyyət–kilsə ziddiyyətlərinin hazırda yüksək fazaya daxil olmasının səbəblərindən biri kimi də məhz “Artsax” mövzusu göstərilir. Nəzərə alaq ki, II Qaregin İsveçrədə dini tədbirdə məhz bu mövzunu qabartmış, faktiki olaraq, Qarabağ avantürizmi ilə bağlı diaspor həmrəyliyi yaratmağa çalışmışdı. Deməli, Ermənistanda müəyyən qüvvələr “Qarabağ kartı”nı diri tutmaq və onu iqtidara qarşı istifadə üçün səfərbər olmaqdadırlar. Səfərbərlik isə 2026-cı ilin parlament seçkilərinə hesablanıb.

Görünür, Şahramanyan da revanşist və şovinistlərin düşərgəsində yer almaqdadır. Bu səbəbdən onun bundan sonra istintaqa çağırılması mümkündür. Həbs ehtimalının artma səbəbi də elə budur. Axı baş nazir Nikol Paşinyan administrasiyası rəqiblərini sıradan çıxarmaqda israrlıdır. Bütün ermənilərin katolikosu II Qaregini çox amansızcasına aşağılayan, bu zaman bütün etik normaları aşan Nikol Samvelə nələr etməz ki?

Sonda əvvəldə vurğuladığımız məqama qayıdaq. “Dəlinin gündəliyi” povestinin baş qəhrəmanı Poprişin sonda dəlixanaya yerləşdirilir və orada özünü cəzalandırılmış kral kimi hiss edir. Məsələyə bu prizmadan yanaşsaq, Şahramanyan üçün ən yaxşı yer Ermənistan İstintaq Komitəsi yox, İrəvandakı psixiatrik dispanserlərdən biridir. Üstəlik, Samvellə birgə orada müalicə kursu keçməli olan çoxları var. Əlbəttə, Ermənistandakı “Qarabağ sevdalı” bütün psixi xəstələri müalicə etmək üçün məkan çatmaz. Bu məqsədlə ayrıca şəhərcik inşa olunmalıdır.

***R.ƏVƏZ***
***XQ***

# Polkovnik “ideoloqluq” edir



**...Xeyli müddət idi səsi eşidilmirdi. Əvvəllər tez-tez yerli və xarici media mənsublarına müsahibələr “paylayır”, Ermənistan–Azərbaycan şərti sərhədində “komandir” pozasında selfilər çəkdirirdi. Hərdən də “diplomat damarını” şişirdib iki ölkə arasında sülhün və atəşkəsin ən etibarlı təminaçısı olduqlarını, onlarsız sərhəd zolağında “qanın su yerinə axacağını” bəyan edirdi. Yəqin diqqətli oxucular söhbətin kimdən getdiyini başa düşdülər. Bəli, yazımızın “qəhrəmanı” Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasının almaniyalı rəhbəri Markus Ritterdir.**

Əgər unutmamısınızsa, Almaniya polisinin sabiq əməkdaşı, polkovnik Ritter rəhbərlik etdiyi missiyanın gələcək fəaliyyətindən, məramından söz açarkən bildirirdi ki, müşahidəçilər sərhəd kəndlərində məktəblərə baş çəkərək şagirdlərlə söhbətlər aparır, onlara nə işlə məşğul olduqlarını, Avropa İttifaqının hansı məqsəd daşıdığını izah edirlər. Başqa sözlə, o, özlərinin bölgədə missionerlik fəaliyyəti göstərdiklərini dolayısı ilə etiraf etmişdi. O zaman ideoloq Ritter bunları da demişdi: “Biz bu fəaliyyəti genişləndirmək istəyirik. Gələcəkdə işimizi təkcə məktəblərə baş çəkməklə deyil, həm də Avropa ideyasını təbliğ etmək üzərində quracağıq. Hər kəsə bildirmək istəyirik ki, biz casusluq, kəşfiyyat fəaliyyəti və ya başqa bir işlə məşğul deyilik. Biz bu bölgəyə sabitlik gətirməyə kömək göstərmək istəyən mülki, silahsız missiyayıq”. Yəni “qarğa məndə qoz var” məsəli...

...Sonra üzə çıxacaq ki, Markus Ritterin dəstəsi heç də silahsız deyil. Onlara hətta sutkanın qaranlıq vaxtında sərhədboyu kəşfiyyat aparmalarından ötrü gecəgörmə cihazları da verilibmiş. Mülki müşahidə missiyasının Qazaxla sərhəddən İran ərazisinə qədər quraşdırdığı müşahidə qüllələrinin funksiyası barədə isə baş sındırmağa dəyməz. Hər şey elə uzaqdan göründüyü kimi aydındır.

Ritterin “binokllu diplomat-kəşfiyyatçıları” barədə təzə xəbər ondan ibarətdr ki, onun doğma vətəni Almaniyanın Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz, Mərkəzi Asiya və Şərq Tərəfdaşlığı Departamentinin rəhbəri Matias Vollertin başçılıq etdiyi nümayəndə heyəti Ermənistana səfər edib. Almaniyanın Cənubi Qafqaz regionundakı səfirlərindən ibarət heyətlə görüşmək Ritter üçün böyük şərəf sayılmalıdır. Bir gün əvvəl isə avropalı rəsmi qonaqları Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyan qəbul edib. “Tərəflər Ermənistan və Azərbaycan arasında sülh sazişi məsələsinə, eləcə də Ermənistan–Türkiyə münasibətlərinin nizamlanması prosesinə” toxunublar. Hayların hökumətinin yaydığı rəsmi məlumatda belə deyilir.

Qeyd edək ki, Matias Vollertin başçılıq etdiyi Almaniya nümayəndə heyəti İrəvana səfəri zamanı rəsmi Ermənistana maliyyə köməyi məsələsi də müzakirə mövzusu olub. Həmin görüşdən dərc olunmuş fotolardan görünür ki, nümayəndə heyətinə Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann, Ermənistandakı Klaudiya Buş və Gürcüstandakı səfiri Peter Fişer daxildir.

...O da məlum olur ki, Aİ özünün Ermənistandakı mülki monitorinq missiyasını Cənubi Qafqazda sabitliyin təşviqi üçün faydalı alət kimi görür. Bu fikrin nə qədər gülünc səsləndiyini bundan əvvəlki yazılarımızda vurğulamışdıq. Axı, hətta bölgədən uzaq müşahidəçilər belə avropalı “monitorinqçilərin” missiyasının Ermənistanı ya sərhəddə baş verə biləcək insidentlərdən, ya da kənar təhlükədən qorumaq olmadığını yaxşı başa düşürlər. Markus Ritterin başçılıq etdiyi Aİ kəşfiyyatçılarının, bütövlükdə, “kollektiv Qərb”in Cənubi Qafqazda “daimi qonaq olmaq” avantürasının icraçıları qismində çıxış etdikləri artıq hər kəsə məlumdur. Məhz buna görə polkovnik-ideoloq Ritter, bir növ, minnət qoyurmuş kimi deyir ki, onun rəhbərlik etdiyi missiya bölgəyə Ermənistan hakimiyyətinin dəvəti ilə gəlib. Yəni, buradan nə vaxt gedəcəklərinə də rəsmi İrəvan qərar verəcək...

***İmran BƏDİRXANLI***
***XQ***

5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

# Su torpağın diriliyi, bolluğun təməlidir

**Prezident İlham Əliyev su təsərrüfatı və meliorasiyanın respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında, ölkənin su və ərzaq təhlükəsizliyinin təminatındakı rolunu nəzərə alaraq 2007-ci il mayın 24-də imzaladığı sərəncamla 5 İyun Meliorator Günü peşə bayramını təsis edib. Dövlətimizin başçısı su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq onun miqyasını daha da genişləndirərək 5 iyunun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü peşə bayramı kimi qeyd olunması barədə 2014-cü il 14 may tarixli sərəncam imzalayıb.**



Bu sənədin imzalanması su təsərrüfatı və meliorasiya işçiləri tərəfindən böyük coşqu və minnətdarlıqla qarşılanıb, onları öz gərgin və şərəfli işlərinə daha da həvəsləndirib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa uyğun olaraq Prezident İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini gerçəkləşdirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə əzəli və tarixi torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin olunmaqla xalqımızın Qarabağ həsrətinə son qoyulub. Ölkədə təhlükəsizliyin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini reallaşdırıb.

Ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı və Sumqayıt şəhərlərinin, həmçinin Abşeron yarımadasının digər yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı su təsərrüfatı kompleksi olan Samur – Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur – Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay – Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi işləri uğurla başa çatdırılıb.

Adları sadalanan infrastrukturun işə salınması ilə respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşdırılıb və 30 min hektar yeni suvarılan torpaqlar su ilə təmin olunub, Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatını daha da yaxşılaşdırıb.

Ulu öndərin "Bakıya bol-bol su gətirəcəyik" ideyasına sadiq qalan Prezident İlham Əliyev paytaxtın dayanıqlı içməli su təminatı üçün yeni təşəbbüslərlə çıxış edib və 2007-ci ilin mart ayında dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Oğuz – Qəbələ – Bakı su kəməri 2010-cu il dekabrın 28-də istismara verilib. Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilən bu su kəmərinin istifadəyə verilməsi ilə Bakı şəhərinin içməli su təchizatında sabitlik təmin olunub.

2011-ci ilin sentyabrında Ceyranbatan gölünün yaxınlığında ultrasüzgəc texnologiyasına əsaslanan yeni kompleksin təməli qoyulub və kompleks 2015-ci ilin oktyabrında işə salınıb. Məhsuldarlığı saniyədə 6 kubmetr olan bu qurğu ilə Abşeron yarımadasında yaşayan 1 milyona yaxın insanın içməli su təminatı ödənilib. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 33 şəhər və rayon mərkəzində içməli və tullantı su, 13-də içməli su şəbəkələrinin, 20-də isə tullantı sutəmizləyici qurğularının tikintisi, əhalisinin sayı 1 milyon 500 min nəfər olan 1000-dən çox kəndin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı işlər başa çatdırılıb.

Azərbaycanın gələcək inkişafında çox vacib rolu olan bir sıra iritutumlu su anbarları, müasir tələblərə cavab verən yeni suvarma kanalları, digər su və meliorasiya obyektləri tikilib istifadəyə verilib.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən 5 ədəd su anbarında "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası olaraq təmir-bərpa işləri, Tərtərçay Sol Sahil kanalının yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Qarabağ və Şərqi Zəngəzurda mövcud su ehtiyatlarından səmərəli istifadə etmək üçün su təsərrüfatı və meliorasiya obyektlərinin təmir-bərpası və inkişafı üzrə layihə sənədlərinin hazırlanması işlərinə də başlanılıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu gün dövlətimizin diqqət və qayğısına cavab olaraq əhalinin içməli su və əkin sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq istiqamətində önəmli layihələr gerçəkləşdirir, mövcud meliorasiya, irriqasiya və su təchizatı sistemlərinin tikintisi, qorunub saxlanılması, lazımi səviyyədə istismarının həyata keçirilməsi, təmir-bərpa işlərinin təşkili sahəsində qarşılarına qoyulan vəzifələri vaxtında və layiqincə yerinə yetirir.

# Naxçıvan regional inkişafın ön mövqeyində



**Müasir iqtisadi inkişaf modeli yalnız istehsal və ticarətin artımı ilə yox, həm də ekoloji, sosial və logistik baxımdan dayanıqlı sistemlərin qurulması ilə qiymətləndirilir. Azərbaycanın mühüm bölgələrindən olan Naxçıvan Muxtar Respublikası da hazırda bu baxımdan uğurlu inkişaf dövrünü yaşayır. Xüsusən də Azərbaycanın Türkiyə ilə yeganə quru sərhədinin muxtar respublikanın ərazisindən keçməsi Zəngəzur dəhlizinin reallaşdırılması fonunda İpək yolunun üzərində yerləşən Naxçıvanın strateji əhəmiyyətini daha da artırır.**

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində bölgənin iqtisadi inkişafı istiqamətində mühüm islahatlar həyata keçirilir. Hazırda muxtar respublika mərkəzi dotasiyadan asılılığını aradan qaldırmağı və özünü maliyyələşdirə biləcək bir regiona çevrilməyi qarşısına hədəf qoyub. Bunun üçün bölkənin logistik imkanlarını daha da işlək vəziyyətə gətirəcək real addımlar atılır, yeni infrastruktur layihələri reallaşdırılır, ölkə başçısının diqqət və tapşırığı ilə müasir sənaye parkları yaradılır, muxtar respublika "yaşıl" enerji bölgəsinə çevrilir. Türkiyə ilə Naxçıvan arasında nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi, yeni logistik dəhlizlərin çəkilməsi və ticarət yollarının inkişaf etdirilməsi istiqamətində mühüm hədəflər müəyyənləşdirilib və icrasına başlanılıb.

Son illər aparılan təşviqat işləri perspektivdə Naxçıvanda investorlar üçün yeni üfüqlərin açılmasını ehtiva edir. Belə ki, bölgənin iqtisadi potensialını artırmaq üçün burada azad iqtisadi zonanın yaradılması istiqamətində işlər aparılır. Bu model Naxçıvanda xüsusi vergi və gömrük güzəştlərinin tətbiqini nəzərdə tutur. Həmçinin Şərur Sənaye Parkı ilə yanaşı, Naxçıvanda yeni sənaye parkının yaradılması istiqamətində işlərə başlanılıb. Bütün bunlar muxtar respublikanı yerli və xarici investorlar üçün də cəlbedici məkana çevirir.

Naxçıvanda aparılan islahatlar fəal vergi ödəyicilərinin sayının artması ilə müşayiət olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin ilk rübündə muxtar respublikada vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz artaraq 20 min 192-yə çatıb. Bununla yanaşı, hesabat dövründə vergi ödəyicilərinin sayı 6005 olub ki, bu da əvvəlki ilin eyni dövründəkindən 18,9 faiz çoxdur. İşlək obyektlərin sayı isə 7,6 faiz artaraq 572-yə çatıb. Bütün bu artımlar, ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir.

Naxçıvan Muxtar Respublikasının ümumi inkişafını xarakterizə edən digər göstəricilər də uğurludur. Bu ilin yanvar-mart aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsi 27 milyon 457 min 60 ABŞ dolları təşkil edib. Bunun da 2 milyon 611 min 380 dolları və ya 9,5 faizi ixracın, 24 milyon 845 min 680 dolları və ya 90,5 faizi isə idxalın payına düşüb. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi 10,2 faiz, o cümlədən ixrac 1,5 faiz, idxal isə 11,2 faiz artıb.

Cari ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilən layihələrin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 3,8 dəfə, ayrılmış güzəştli kreditlərin məbləği isə 6,5 dəfə artıb. Ümumilikdə, fondun ehtiyatları hesabına sahibkarlıq subyektlərinə müəyyən edilmiş prioritet istiqamətlər üzrə il ərzində 25 milyon manatadək maliyyələşdirilmə hədəflənib.

Bütün bunlar onu deməyə əsas verir ki, özünəməxsus coğrafi mövqeyi və iqtisadi potensialı ilə seçilən Naxçıvan artıq regionun yeni investisiya, logistik və ticarət mərkəzlərindən birinə çevrilməkdədir. Son illər burada ölkənin iri ticarət şəbəkələrinin fəaliyyətə başlaması Zəngəzur dəhlizinin perspektivləri ilə birlikdə bu inkişafı daha da sürətləndirir. Əvvəllər, əsasən, yerli bazarlara və kiçik ticarət obyektlərinə əsaslanan Naxçıvan bazarı son dövrlərdə dəyişməkdədir. Hazırda burada fəaliyyət göstərən iri ticarət və xidmət şəbəkələri istehlakçılara həm geniş seçim, həm də yeni iş imkanları yaradır.

Yeri gəlmişkən, Naxçıvanın təmiz ekoloji mühiti belə ticarət şəbəkələrini daha məsuliyyətli fəaliyyət göstərməsini zəruri edir. Belə ki, qablaşdırmada plastikdən az istifadə, tullantıların düzgün çeşidlənməsi və enerji səmərəliliyi kimi məsələlərə xüsusi diqqət yetirilir. Muxtar respublika üzrə sosial dayanıqlılığın təminatına mühüm töhfələr verən iri ticarət şəbəkələri yüzlərlə insana iş imkanı yaradıb. İri şəbəkə marketlərinin bəzi yerli kiçik sahibkarlar üçün çətinlik törətməməsi üçün düzgün tənzimləmə həyata keçirilməlidir ki, bu da muxtar respublikada iqtisadi dayanıqlılığı təmin etməklə Naxçıvan istehsalı olan məhsullarının satış həcmini artırmaq üçün əlavə imkanlar yaradır. Bununla yanaşı, ticarət şəbəkələrinin sayının artması məhsulların satışında sağlam rəqabət mühiti formalaşdırır. Ən nəhayət, perspektivdə Zəngəzur dəhlizinin reallaşması Naxçıvanı təkcə Azərbaycanın daxili bazarında deyil, beynəlxalq logistik qovşaq kimi də ön plana çıxaracaq. Bu, həm də Naxçıvan məhsulları üçün daha geniş ixrac potensialı yaradar.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası təkcə coğrafi baxımdan deyil, həm də iqtisadi və logistik imkanlar baxımından strateji əhəmiyyətə malikdir. Burada şəbəkə marketlərinin dayanıqlı və məsuliyyətli şəkildə fəaliyyəti regionun iqtisadi inkişafını daha da gücləndirəcək. Zəngəzur dəhlizi kimi layihələrin reallaşması isə bu prosesi beynəlxalq səviyyəyə daşıyacaq. Eyni zamanda, bölgənin strateji coğrafi mövqeyi, azad iqtisadi zona kimi inkişaf perspektivi və artan investisiya axını onu regional və beynəlxalq ticarət mərkəzinə çevirəcək.

***Röyal MƏMİYEV,***
***Naxçıvan Televiziyasının baş redaktoru***

# "Şahdəniz" qaz yatağına yeni qapı açılır

**Bakı Enerji Forumu çərçivəsində konsorsium iştirakçıları Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsi olan yeni kompressiya (ŞDK) layihəsi üçün yekun investisiya qərarını elan ediblər. 2,9 milyard ABŞ dolları dəyərində olan ŞDK layihəsi yatağın işlənməsinin əvvəlki iki mərhələsinin davamıdır.**

Bu layihədə məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.



Xatırladaq ki, layihə çərçivəsində yeni kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya Əsasən Heyətsiz Qurğu (eNUI)) inşası nəzərdə tutulur. Platforma suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" platformasından, təxminən, 3 kilometr məsafədə quraşdırılacaq. Üzərində dörd ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq platforma mövcud "Şahdəniz" platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl yeni platformada kompressiya olunacaq.

Layihə çərçivəsində, həmçinin "Şahdəniz" müqavilə sahəsində bir sıra əlavə obyektlər quraşdırılacaq. Bunlara mövcud platformaların qaz ixrac xətlərinə birləşən yataqdaxili sualtı qaz boru kəmərləri, ŞDK platformasını enerji ilə təchiz etmək üçün Səngəçal terminalından çəkilən birləşdirilmiş elektrik və fiber-optik kabel xətti, "Şahdəniz-Bravo"dan yeni kompressiya platformasına birləşdirici ehtiyat elektrik və fiber-optik kabel xətti, eləcə də hasilat platformaları və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işlər daxildir.

Bu ilin sonlarında başlanacaq tikinti işlərinin 2029-cu ildə tamamlancaq. Yeni platformanın həmin ildə "Şahdəniz-Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz-Bravo"dan hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır. Tikinti işləri ölkə daxilində yerli resurslardan istifadə etməklə həyata keçiriləcək.

# "Azərbaycan Dəmir Yolları"nın beynəlxalq təqdimatı

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) Münxendə keçirilən "Nəqliyyat və Logistika – 2025" beynəlxalq sərgisində iştirak edib. Qurum nüfuzlu mobillik sərgisində xüsusi stendlə təmsil olunub. Burada ADY-nin beynəlxalq dəhlizlər üzrə yükdaşıma əməliyyatları, Qarabağ və Şərqi Zəngəzurda icra edilən dəmiryol layihələri və infrastruktur quruculuğu, şirkətin dayanıqlılıq üzrə fəaliyyəti, xidmətləri, tətbiq etdiyi rəqəmsal həllər və Bakı Dəniz Limanı haqqında ətraflı məlumatlar təqdim olunub.**




ADY-nin sədri Rövşən Rüstəmov sərgi çərçivəsində bir sıra aparıcı nəqliyyat və logistika şirkətlərinin rəhbərləri ilə görüşüb. Çinin Dəmiryol Konteyner Daşımaları Korporasiyasının prezidenti Yanq Binlə keçirilən görüşdə iki ölkə arasında inkişaf edən nəqliyyat əlaqələri müzakirə olunub, bu xüsusda aprel ayında Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı iki ölkə arasında imzalanmış "Kəmər və yol" təşəbbüsünün birgə təşviqi və beynəlxalq multimodal daşımalar haqqında sənədlərin xüsusi əhəmiyyəti qeyd olunub. Eyni zamanda, Orta Dəhliz üzrə konteyner blok-qatarlarının artırılması ilə bağlı atılacaq addımlar, Çindən Qara dənizə kimi yüklərin izlənməsinə imkan verəcək rəqəmsal platforma ilə bağlı fikir mübadiləsi aparılıb.

R.Rüstəmovun bu ölkənin digər aparıcı logistika şirkəti olan "Beijing Trans Eurasia International Logistics"in icraçı direktoru Uansu Donqla görüşü zamanı isə sözügedən qurumun Çindən Avropaya və əks istiqamətdə blok-qatarların göndərilməsi üzrə ADY ilə əməkdaşlığı genişləndirmək barədə təklifləri müzakirə edilib, həmçinin Orta Dəhlizlə yükdaşımaların artırılması ilə bağlı qarşıdakı dövr üçün planlar nəzərdən keçirilib.

Sərgi çərçivəsində ADY sədri həmçinin Bolqarıstanın Burqas Limanının baş direktoru Boris Balev və Almaniyanın Hamburq Limanında fəaliyyət göstərən "HHLA International GmbH" şirkətinin rəhbərliyi ilə Orta Dəhliz üzrə yükdaşıma əməliyyatlarının səmərəli təşkili üçün regional limanlar arasında əməkdaşlığın genişləndirilməsini müzakirə edib.

Almaniyanın "Rhenus Group" və Avstriya Dəmir Yollarının "ÖBB Rail Cargo Group" şirkətlərinin rəhbər heyəti ilə keçirilən görüşlərdə isə Çin – Avropa – Çin nəqliyyat bağlantısı ilə Azərbaycan üzərindən yükdaşımaların daha səmərəli təşkili üçün görülə biləcək birgə işlər ətrafında fikir mübadiləsi aparılıb. Söhbət əsnasında Azərbaycanın Şərq – Qərb bağlantısında mühüm qovşaq kimi aparıcı rolu, nəqliyyat infrastrukturunun, o cümlədən Bakı – Tbilisi – Qars dəmiryol xəttinin perspektivləri diqqətə çatdırılıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Üzeyir Hacıbəyli – 140

# Türk dünyasının musiqi dühası

(əvvəli 1-ci səhifədə)

Sağlığında olduğu kimi, haqqa qovuşduqdan sonra da ölməz yaradıcılığı, müqəddəs adı ilə canından çox sevdiyi doğma xalqına ümumbəşəri şöhrət gətirmiş Üzeyir Hacıbəylinin musiqisi dünyanı heyrətə salmaqdadır.

Təsadüfü deyil ki, Kanadanın Niaqara şəlaləsi yanında dahi bəstəkar Volfqanq Amadey Motsartın 250 illik yubileyinə həsr olunmuş böyük festival Üzeyir bəyin "Fantaziya" əsəri ilə açılmışdır. Bu da Üzeyir bəyin musiqisinin dünyəviliyindən xəbər verir.

Üzeyir bəy Hacıbəyli Azərbaycan, bütünlükdə böyük Türk dünyasının mədəniyyəti, incəsənəti üçün nələr etmədi? Xalqının çiçəklənməsi yolunda ömrünü şam kimi əritdi. İlk opera, operetta, müxtəlif janrlarda əsərlər yazdı. Milli kadrlar yetişdirmək üçün musiqi məktəblərin, musiqi texnikumunun, konservatoriyanın bünövrəsini qoydu. Bütün musiqi kollektivlərinin – xalq çalğı alətləri "notlu" orkestrini, Dövlət xorunu, simli kvarteti, simfonik orkestri, mahnı və rəqs ansamblını, sazçı qızlar dəstəsini yaratdı. Azərbaycanda bəstəkarlıq məktəbinin bünövrəsini qoydu və böyük bəstəkarlar, musiqişünaslar nəsli yetişdirdi. Onun tələbələrindən Asəf Zeynallı, Fikrət Əmirov, Qara Qarayev, Ərtoğrol Cavid, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Niyazi, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Səid Rüstəmov, Cahangir Cahangirov, Məmməd Cavadov, Ədilə Hüseynzadə, Şəfiqə Axundova, Ağabacı Rzayeva, Hökümə Nəcəfova, Əminə Eldarova və yüzlərlə başqaları bu gün də xalqımızın sevdiyi bəstəkar və musiqişünaslardır.

Üzeyir bəy sənətə gələndə nə bir məktəb, nə də ki, bir müəllim vardı. Bu cəfakeş, fədakar insan nə yaratdısa, təkbaşına yaratdı. Bütün cığırları özü açdı. Akademik Mustafa bəy Topçubaşov özünün "Acılı-şirinli xatirələr"ində yazırdı ki, mən Üzeyir bəyi Avropa bəstəkarlıq məktəbinin Bax, Verdi, Motsart, Bethoven və b. nümayəndələri ilə müqayisə etmək istəmirəm. Daha doğrusu, çətinlik çəkirəm, çünki Üzeyir bəy məktəb nümayəndəsi deyil, özü ayrıca bir məktəb idi."

Dahilər dahisi Üzeyir bəy Hacıbəylinin yetişməsində təbii ki, Azərbaycanımızın tacı sayılan qədim Şuşa mühitinin də böyük rolu olmuşdur. Bu dilbər guşənin saf iqlimi – havası, suyu, eləcə də ədəbi və musiqi məclisləri Şuşadan çıxan bir çox böyük şəxsiyyətlər kimi Üzeyir bəyi də Azərbaycana ərmağan etmişdir. Üzeyir bəy Hacıbəylinin əsli-kökü büllur kimi Şuşadan idi. Onlar Şuşada Çöl qala məhəlləsində yaşayırdılar. Lakin Üzeyir bəy 18 sentyabr 1885-ci ildə Şuşa qəzasının Ağcabədi mahalında dünyaya gəlmişdir. Doğulandan bir ay sonra isə kiçik Üzeyiri anası Şirinbəyim Əliverdibəyli–Hacıbəyli ilə bərabər dəvənin üstündə qoyulmuş xüsusi kəcavədə Şuşaya aparmışlar.

Gözəl Şuşa mühitində böyüyən Üzeyir bəy ilk təhsilini bu füsunkar şəhərdə almış, ərəb, fars, rus dillərini də məhz burada əxz etmişdir. Ü. Hacıbəyli yazırdı ki, mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada ən yaxşı xanəndə və sazəndələrdən almışam. Sonra o, Qori Müəllimlər Seminariyasında (1899–1904) təhsil alaraq, yenidən Azərbaycana qayıtmış, əvvəlcə Qarabağın Hadrut (Xocavənd) kəndində, sonra Bakının Bibiheybət, "Səadət" məktəblərində ana dili, hesab, coğrafiya, tarix, rus dili və musiqidən dərs deyərək, Vətənə yararlı insanlar yetişdirmişdir.

Kiçikdən böyüyə, hamının, hətta SSRİ adlı bir imperiyanın rəhbəri İosiv Stalinin belə "bəy" deyə müraciət etdiyi Üzeyir Hacıbəyli, həqiqi mənada, bəy nəslindən idi. 18 avqust 1897-ci ildə xan qızı Natəvan və bir neçə nəfərdən ibarət Qarabağ bəyləri tərəfindən imzalanmış şəhadətnamədə Ü. Hacıbəylinin bəy nəslindən olduğu təsdiq edilmişdir. Əmək fəaliyyətinə pedaqoq, publisist kimi başlayan Üzeyir bəy Bakıda Orucov qardaşları mətbəəsində "Türk-rus, rus-türk" lüğətini (1907) və "Hesab məsələləri" (1908) dərsliyini çap etdirmişdir. Mütərcimliklə də məşğul olmuş və 1909-cu ildə görkəmli rus yazıçısı Nikolay Qoqolun "Şinel" əsərini ilk dəfə ana dilimizə çevirmişdir.

"Dəllək" adlı ilk mənzum felyetonunu Tiflisdə çıxan "Şərqi-Rus" qəzetində dərc etdirən Üzeyir bəyin bu sahədəki yaradıcılığı 1903–1948-ci illəri əhatə edir. Bu yöndəki fəaliyyətinin ən məhsuldar çağları isə 1905–1920-ci illər olmuşdur. Bu illərdə o, "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal", "Azərbaycan", "Kaspi", "Molla Nəsrəddin" kimi qəzet və dərgilərdə 67 təxəllüs altında ("Filankəs", "Bəhmənkəs", "Bir şəxs", "Bisavad", "Çı", "Lal uşaq", "Hamamçı", və i. a.) özünün bir-birindən maraqlı məqalə və felyetonlarını dərc etdirmişdir. Ümumiyyətlə, Üzeyir bəy Hacıbəyli böyük cəsarət sahibi olmuşdur. Qorxmaz, uzaqgörən bir publisist kimi yazdığı məqalə, felyeton, pamflet, satirik hekayə, miniatür və s. janrlarda əsərləri öz aktuallığı ilə bu gün də çox önəmlidir.

Hər gün maraqlı mövzularla mətbuatda çıxış edən Üzeyir bəy həm də 4 qəzetə redaktorluq etmişdir. "Tərəqqi" (1908–1909), "Həqiqət" (1909–1910), "Yeni iqbal " (1915–1916), "Azərbaycan" (1919–1920) qəzetlərinin rəhbəri olaraq, səmərəli fəaliyyət göstərmişdir.

İstər publisist kimi, istər dramaturq, istər pedaqoq, istər tərcüməçi, istər alim, filosof, istər ictimai xadim olaraq fəaliyyət göstərdiyi bütün sahələrdə Üzeyir bəy öz təkrarsız möhürünü vurmuşdur. Lakin ona dünya şöhrəti gətirən musiqi əsərləri, bəstəkarlığı olmuşdur. Özünün gözəl əsərləri ilə dünya mədəniyyətinə pəncərə açmışdır. Əbəs yerə Şərq musiqisinin atası sayılmırdı. 22 yaşında ikən "Leyli və Məcnun" adlı ilk fenomenal operasını yaratdı və Şərq aləmində bu janrın əsasını qoydu. İlk operasından ruhlanaraq, bir-birinin ardınca "Şeyx Sənan"(1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) kimi milli operalarını yazdı. Məhz milli operalarını, muğam operalarını yox! Üzeyir bəy Hacıbəyli heç vaxt operalarına muğam operası deməmişdir. Bu əsərlər muğamlar əsasında yazılmış milli operalardır. Təəssüflər olsun ki, Üzeyir bəyin yaradıcılığını dərindən bilməyənlər bu əsərləri muğam operaları adlandıraraq, onların mahiyyətini kiçildirlər. Hər halda dahi bəstəkar özü yaxşı bilirdi ki, nə yaradıb...

Operalarla yanaşı bütün Şərqdə ilk operetta janrının yaranması da məhz Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. O, "Ər və arvad" (1909), "O olmasın, bu olsun" (1910), "Arşın mal alan" (1913)



kimi dünya şöhrəti qazanmış operettalarla bənzərsiz məktəb yaratmışdır. Sankt-Peterburq Konservatoriyasında təhsil aldığı ildə (1913) yazdığı "Arşın mal alan" operettası 67 xarici dilə tərcümə edilmiş, 100-dən çox teatrın səhnəsində oynanılmış, 4 dəfə ekran həyatı yaşamışdır. Bu əsər ABŞ-ın 13 ştatında, Polşanın 16 şəhərində, Çinin 3 şəhərində, Türkiyədə, İranda, Yunanıstanda, Fransada və onlarca başqa ölkədə tamaşaya qoyulmuşdur. 1945-ci ildə ekranlaşdırılmış "Arşın mal alan" filmi isə bütün dünyanı dolaşmışdır. Bu gün də ölkəmizdən çox-çox uzaqlarda "Arşın mal alan" böyük uğurla səhnələrdə oynanılaraq, müxtəlif xalqların sevimlisinə çevrilmişdir. Sevindirici haldır ki, 2006-cı ildə Avropanın musiqi beşiyi sayılan Vyanada "Arşın mal alan" operettası böyük uğurla tamaşaya qoyulmuşdur.

Üzeyir bəy Hacıbəylinin yaradıcılığının tacı, qəhrəmanlıq dastanı olan "Koroğlu" (1937) operası böyük sənətkara misilsiz uğur və şöhrət gətirmişdir. Bu əsərdə o, Qərb musiqi üslubundan faydalanaraq, Avropa dilində özünün Şərq, milli operasını yazmış, böyük ustalıqla Qərb və Şərq musiqi alətlərinin sintezini yaratmışdır."-Koroğlu" operası 1938-ci ildə Moskvada keçirilmiş Azərbaycan İncəsənəti ongünlüyündə görünməmiş uğurla göstərilmiş və "Ən yaxşı opera" adına layiq görülmüşdür.

Maraqlıdır ki, Ü. Hacıbəyli "Koroğlu" operasından başqa altı opera və üç operettasının librettosunu da məhz özü yazmışdır. "Koroğlu"nun librettosuna isə xeyli düzəlişlər etmişdir. Ümumiyyətlə, Üzeyir bəyin çox maraqlı, şirin, cəlbedici dili vardır. Heç təsadüfi deyildir ki, onun qələmindən çıxmış bir çox ifadələr zərb-məsəllərə, kəlamlara çevrilmişdir. "Heç hənanın yeridir", "Qurban olasan ayağımın altında yatan hambala", "Sən dul, mən dul, gəl mənə bənd ol", "Pulun var – gələrəm", "Yazılarımı iyləmə". "Lap oranqutan meymunudur" və s. kimi ifadələr xalqın dilinin əzbəridir.

Böyük qələm və söz ustası olan Üzeyir bəy Hacıbəyli həm operalarının, həm də operettalarının librettolarında sadə xalq həyatını əsərə gətirərək, hadisələri bədiiləşdirmişdir. Məsələn, "O olmasın, bu olsun" əsərinin fabulası Bakı həyatından, "Arşın mal alan" operettasının mövzusu isə Şuşa məişətindən götürülmüşdür.

Üzeyir bəyin əsərlərində qadın azadlığı, həqiqi eşq, öz paklığı, ülviliyi ilə seçilən və qara qüvvələrə qalib gələn saf məhəbbət əsas süjet xətti olmuşdur. Sədaqət, vəfa, mətanət, nikbinlik, azadlığa və əməyə sevgi, xəyanətə və zülmə nifrət Ü. Hacıbəylinin opera və operettalarının əsas aparıcı mövzusunu təşkil edir.

Üzeyir bəy Hacıbəyli irsi çox qiymətli xəzinədir. Mədəniyyətin elə bir sahəsi yoxdur ki, orada onun dəst-xətti görünməmiş olsun. Ümumiyyətlə, dahi sənətkar nə yaratmışdırsa, hamısı bir ilk olmuşdur. Bütün sənət cığırlarını Üzeyir bəy açmışdır. 300-dən çox xalq mahnısını nota salmış, "Azərbaycan", "Dağıstan" adlı birpərdəli baletləri, marş və kantatalarını, fantaziyaları, mahnı və romansları, kamera və xor əsərləri yazmışdır. Dövlətimizin rəmzlərindən biri olan "Himn"də Ü. Hacıbəyli qələminin məhsuludur.

Musiqişünas alim kimi Ü. Hacıbəyli 1945-ci ildə özünün "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi əsərini nəşr etdirmişdir. Kitabın müqəddiməsində müəllif yazırdı: "Mənim bu əsərim Azərbaycan xalq musiqisinin əsas cəhətlərini öyrənmək üçün nəzəri bir vəsait və Azərbaycan ladları əsasında musiqi yazan bəstəkarlara bir yaradıcılıq köməyidir". Doğrudan da, "Azərbaycan xalq musiqisinin əsasları" əsəri bəstəkarların masaüstü dərsliyidir. Bu kitabın dəyərini o dövrkü sovet bəstəkarları və musiqişünasları da etiraf edirdilər. "Şahsənəm" operasının müəllifi, SSRİ xalq artisti R. M. Qlier 1945-ci ildə Üzeyir bəyə göndərdiyi məktubda "Azərbaycan xalq musiqisinin əsasları"nın mahiyyəti barədə yazırdı: "Mən inanıram ki, Sizin əsərinizin Azərbaycan, habelə bütün sovet və dünya musiqi sənətinin inkişafında müstəsna əhəmiyyəti olacaqdır."

Bu əsər haqqında xalqımızın fəxri, dünya şöhrətli professor, məşhur kristalloqraf Xudu Məmmədov isə belə demişdir: " Üzeyir bəy Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabı böyük bir dəryadır. Bu qiymətli, fundamental əsər təkcə Azərbaycan xalq musiqisinin deyil, eyni zamanda bütün elmlərin əsasıdır".

Üzeyir bəy Hacıbəyli 1945-ci ildə təşkil edilmiş, Azərbaycan Elmlər Akademiyasının yaradıcılarından biri olmuş və həmin ildən də Akademiyaya həqiqi üzv seçilmişdir. Bir önəmli məsələni də xüsusi qeyd etmək lazımdır. Azərbaycan Elmlər Akademiyasının nəzdində olan indiki Memarlıq və İncəsənət İnstitutunun bünövrəsini 1945-ci ildə Üzeyir bəy Hacıbəyli qoymuşdur. O zaman institutun adı sadəcə İncəsənət adlanırdı. Ömrünün sonuna kimi bu ocağa da Üzeyir bəy rəhbərlik etmişdir. Böyük dühanın anadan olmasının 60 illiyi münasibətilə 1945-ci ildə Azərbaycan hökumətinin xüsusi qərarına əsasən həmin İncəsənət İnstitutuna Üzeyir bəy Hacıbəylinin adı verilmişdir.

**Üzeyir bəy Hacıbəyli, sadəcə, sevgili Azərbaycanın, əziz Azərbaycanın, qardaş Azərbaycanın deyil, eyni zamanda, Türkiyənin də böyük iftixar qaynaqlarındandır. Böyük millətlər böyük sənətkarlar yetişdirir, böyük sənətkarlar da millətlərinin üzünü ağ edirlər. Üzeyir bəy millətimizin üzünü ağ edən və bizləri ucaldan böyük bir sənətkardır.**

**Yavuz Bülənd Bakilər,**
**görkəmli türk şairi,**
**publisist, alim**

Dahi sənətkarın sağlığında onun fəaliyyəti dəyərincə qiymətləndirilmişdir. Onunla ən yüksək dairələrdə belə hesablaşırdılar. Bütün səviyyələrdə də Üzeyir bəyin sözü qəbul olunurdu. 1938-ci ildə Moskvada keçirilən dirijorların ümumittifaq müsabiqəsinin münsiflər heyətinin üzvü, 1939-cu ildə yenə də Sovetlər Birliyinin paytaxtında düzənlənən SSRİ xalqlarının milli musiqi alətlərində ifaçıların ümumittifaq müsabiqəsinin münsiflər heyətinin sədri kimi önəmli vəzifələr Üzeyir bəy Hacıbəyliyə tapşırılmışdır. Bütün sovet bəstəkarları arasında ilk SSRİ Xalq artisti fəxri adı (1938) ona verilmişdir. İki dəfə (1941, 1946) Stalin mükafatına layiq görülmüşdür. 1937-ci ildən ömrünün sonuna qədər SSRİ Ali Sovetinin deputatı olmuşdur. Dövlətin ən mötəbər ödülləri ilə təltif edilmişdir.

23 noyabr 1948-ci ildə millətimizin fəxri, xalqımızın qüruru olan Üzeyir bəy Hacıbəyli 63 yaşında dünyasını dəyişərək haqqa qovuşdu. Şahidlərin və foto-sənədlərin dediyinə görə, belə izdihamlı dəfn mərasimi heç vaxt görünməmişdir. Bütün Azərbaycan, başda ölkənin o zamankı rəhbəri Mir Cəfər Bağırov olmaqla, dövlət və hökumət nümayəndələri, ziyalılar, ədəbiyyat və incəsənət xadimləri, adi vətəndaşlar, hətta əlil insanlar belə göz yaşları içərisində xalqımızın böyük oğlunu, dahi sənətkarı son mənzilə yola salmağa gəlmişdilər. Yollar, binaların damları, artırmalar insanlarla dolu idi. İynə atılsa, yerə düşməzdi. Hönkür-hönkür ağlayan insan axınının qarşısını almaq heç vəchlə mümkün deyildi. Atlı polis dəstəsi bu izdihamı nizamlamaqda çətinlik çəkirdi. Dəfn mərasimində başqa respublikalardan da çoxlu nümayəndələr iştirak edirdilər.

1965-ci ildə dahi sənətkarın anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin xüsusi qərarına əsasən Ü. Hacıbəyli adına respublika Dövlət mükafatı təsis edilmişdir. Onun ilk laureatları maestro Niyazi, dramaturq Şıxəli Qurbanov və bəstəkar, Xalq artisti Süleyman Ələsgərov olmuşlar. Təəssüf ki, bu mükafat da Elmlər Akademiyasının İncəsənət İnstitutunun adı kimi dəyişikliyə uğramışdır.

Cahanşümul dahi sənətkar Üzeyir bəy Hacıbəylinin xalqımıza qoyub getdiyi miras çox qiymətli xəzinədən ibarətdir. Bu xəzinə o qədər zəngindir ki, gələcək nəsillərə də ondan pay düşəcək. Yetər ki, onu layiqincə qiymətləndirək və qoruyub saxlamağı bacaraq.

*Səadət QARABAĞLI,*
*üzeyirbəyşünas*

# Fatmanın rəngli hekayətləri

**Rəssamlıq dünyasında hər bir rəngin, hər bir xəttin öz hekayəsi var. Bu hekayələri ən gözəl şəkildə ifadə edən sənətkarlardan biri də Fatma İmanovadır. Onun yaradıcılığına nəzər yetirdikdə təbiətlə, insanlarla və milli dəyərlərlə qurduğu emosional əlaqə aydın hiss olunur.**

Fatma İmanova 1993-cü ildə Bakıda anadan olub. Rəssamlıq istedadı onun üçün uşaqlıqdan aşkar edilən bir işıq yoludur desək, yanılmarıq. Hələ 3 yaşı olarkən qələmlə, karandaşla çəkdikləri onun istedadının ilk işartıları idi. Qızdakı bacarığı fərq edən valideynlərinin diqqəti və dəstəyi sayəsində o, 11 yaşında rəssamlıq dərsləri almağa başlayıb. İlk müəllimi Əməkdar rəssam Elçin Axundov olan istedadlı qız müəlliminin rəhbərliyi altında sənətin sirlərinə yiyələnməyi bacarıb. Daha sonra o, Səttar Bəhlulzadə adına Uşaq Rəsm Studiyasına (indiki Qalereya 1969) gedib və orada Əməkdar rəssam Dilarə Atakişiyevadan rəssamlıq dərsləri alıb. Beləliklə, istedadlı gəncin ilk qrup sərgisi 2006-cı ildə keçirilib və o vaxtdan etibarən yaradıcılığı geniş auditoriyanın diqqətindədir. Həmin ilin may ayında





Üzeyir Hacıbəylinin 120, Rəşid Behbudovun 90 illiyinə və "Arşın mal alan" bədii filminin 60 illiyinə həsr olunmuş "Musigi rəngləri" adlı uşaq rəsm müsabiqəsində uğurla iştirak edib. İki əsəri sərgilənib və kataloqda çap olunub.

Fatma İmanova 2011-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdindəki İncəsənət Kollecinə daxil olaraq dekorativ-tədbiqi sənət və xalq sənəti ixtisasında xalçaçı-rəssam şöbəsində təhsil alıb. Diplom müdafiəsi zamanı o, "Xətai" naxışını işləyərək milli sənət ənənələrinə müasir yanaşma nümayiş etdirib. 2015-ci ildə isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına "Müasir rəngkarlıq" ixtisası üzrə qəbul olunaraq təhsilini davam etdirib. Diplom işi olaraq "Dayanacaq" mövzusunda seçdiyi işində gündəlik həyatın sadə, lakin dərin məqamlarını – avtobus gözləyən insanların emosiyalarını özünəməxsus üslubda təsvir edib.

Getdikcə onun mövzu dairəsi də genişlənib. Rəssamın yaradıcılığında "Dədə Qorqud" dastanından tutmuş A.S.Puşkin kimi dahi şəxsiyyətlərin təsiri də öz əksini tapıb. Onun sənət dünyasında maraqlı məqamlar çoxdur. Bəlkə də heç düşünməzdi ki, məktəb illərində kitabda görüb diqqətini çəkən rəsm əsərlərindən birinin müəllifi – Əməkdar rəssam Asif Azərelli sonradan onun diplom rəhbəri olacaq. Amma belə olub və Fatma rənglərlə danışan incəsənət qəhrəmanlarının müəllifi kimi tanınıb.

İstedadlı gəncimzin iştirak etdiyi sərgilər və qazandığı mükafatlar onun sənətdəki uğurlarının gözlə görünən sübutudur. O, İtaliya, Ukrayna, Türkiyə, Misir kimi bir çox xarici ölkələrdə keçirilən beynəlxalq sərgilərə qatılıb, diplom, sertifikat və mükafatlara layiq görülüb.

Azərbaycan Rəssamlar İttifaqının üzvü olan gənc rəssamın istedadı 2021-ci ildə Prezident təqaüdü ilə dəyərləndirilib. Hazırda Fatma İmanova təkcə yaradıcılıqla deyil, həm də rəsm müəllimi kimi fəaliyyət göstərir. Gənc rəssamlara özünün təcrübələrini ötürməklə milli sənətin inkişafına dəyərli töhfələr verir.

Fatma İmanovanın yaradıcılığı Azərbaycanın mədəni irsi ilə müasir incəsənətin harmoniya içində birləşdiyi bir sənət aləmidir. Onun fırçasından çıxan hər bir əsər izləyicini özünəməxsus emosional səyahətə aparır. Sənətin qüdrəti rənglərlə danışmaqdadır, sənətkarlar isə bu danışığın ən gözəl tərcüməçisidir.

*Ziyarət QƏHRƏMANOVA-CABAROVA,*
*Azərbaycan Dövlət Rəsm Qalereyasının*
*böyük elmi işçisi, sənətşünas*

Beynəlxalq həyat

# Böyük Britaniya “Soyuq müharibə” məntiqinə qayıdırmı?




**İyunun 2-də Böyük Britaniya hökuməti son onilliklərin ən genişmiqyaslı müdafiə proqramını açıqladı. Baş nazir Kir Starmerin təqdim etdiyi yeni strategiya yalnız maliyyə ölçüsü ilə deyil, həm də siyasi və texnoloji baxımdan Avropa təhlükəsizlik mühitində ciddi dəyişikliklərə işarə edir. “Soyuq müharibə”dən bu yana ilk dəfə London nüvə çəkindirmə siyasətinə yenidən hava komponenti əlavə etməyi, kritik infrastrukturun müdafiəsini gücləndirməyi və kiber məkanla süni intellekt sahələrinə daha geniş investisiyalar yatırmağı planlaşdırır.**

Strateji yeniliklər nədən ibarətdir? Böyük Britaniyanın yeni müdafiə paketi bir neçə əsas istiqaməti əhatə edir. Birincisi, 20 milyard dollardan çox vəsait döyüş sursatlarının istehsalına ayrılacaq. 6 yeni sursat fabriki və 12 hücum tipli sualtı qayıq istehsalı nəzərdə tutulur. Nüvə arsenalının modernizasiyası, o cümlədən “Trident” raketləri daşıyan sualtı qayıqlarla yanaşı, F-35A qırıcıları üçün B61-12 tipli nüvə bombalarının mümkün yerləşdirilməsi də plana daxildir. Bundan başqa, kritik infrastrukturun qorunmasına, kibertəhlükəsizlik və süni intellekt texnologiyalarına sərmayənin artırılması da planlaşdırılır. Nəhayət, hərbi şəxsi heyətin sayının artırılması və “döyüşə hazırlıq” səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılacaq. Baş nazir Starmerin sözlərinə görə, bu strategiya yalnız müdafiəni gücləndirmək məqsədi daşımır, eyni zamanda qarşısını almaq istədiyi mümkün münaqişələrin qarşısını almağa xidmət edir.

Britaniyanın bu addımı NATO-nun ümumi müdafiə qabiliyyətini gücləndirsə də, bəzi Avropa ölkələri üçün narahatlıq doğura bilər. Xüsusilə müstəqil təhlükəsizlik və silahlanma siyasəti yürüdən Fransa və Almaniya bu prosesdə öz mövqelərini balanslaşdırmaq məcburiyyətində qalacaqlar. Bununla belə, Baltikyanı ölkələr və Şərqi Avropa dövlətləri bu dəyişiklikləri potensial dəstək kimi qiymətləndirə bilər. Eyni zamanda, yeni strategiya Avropa İttifaqı ilə Böyük Britaniya arasında təhlükəsizlik sahəsində əməkdaşlıq imkanlarını da genişləndirə bilər. Lakin bu əməkdaşlığın hansı hüquqi və institusional əsaslar üzərində qurulacağı hələlik açıq qalır.

Böyük Britaniyanın müdafiə strategiyası rəsmi bəyanatlarda birbaşa Rusiyaya yönəlmiş kimi təqdim olunur. Xüsusilə Ukraynadakı müharibə fonunda Londonun ritorikası daha sərt və açıq şəkildə çəkindirmə xəttini gücləndirməyə yönəlib. Yeni hava komponentinin (F-35A tipli nüvə daşıyan qırıcıların) gündəmə gəlməsi isə Moskva tərəfindən diqqətlə izlənir. Rusiya tərəfi bu addımları regionda gərginliyi artıran faktor kimi qiymətləndirməyə meyllidir. Nəticə etibarilə, qarşılıqlı strateji inamsızlığın yeni silahlanma yarışına və ya regionda “çəkindirmə balansının” pozulmasına səbəb ola biləcəyi güman edilir. Moskvanın cavab addımlarının Kalininqradda, Belarusda və Arktikada hərbi aktivliyini artırmasından ibarət olacağı güman edilir.

Beləliklə, politoloqların da fikrincə, Böyük Britaniyanın yeni müdafiə strategiyası yalnız daxili təhlükəsizlik məsələsi deyil, həm də Avropanın ümumi təhlükəsizlik sisteminin transformasiyasıdır. “Soyuq müharibə” dövründən sonra ilk dəfə olaraq belə ölçüdə kompleks müdafiə proqramı həm siyasi, həm də texnoloji baxımdan ciddi nəticələr doğura bilər. Bu kontekstdə Britaniyanın NATO daxilində və Avropa təhlükəsizlik arxitekturasında yeni rolunun formalaşması müşahidə olunacaq. Nəticə etibarilə Londonun yeni müdafiə planı Avropa üçün təkcə hərbi qüvvələrin möhkəmləndirilməsi deyil, eyni zamanda, strateji düşüncənin yenidən qurulması anlamına gəlir. Əgər bu strategiya koordinasiyalı şəkildə NATO və ya Avropa İttifaqı ilə uyğunlaşdırılarsa, o zaman Avropanın kollektiv müdafiəsini möhkəmləndirə bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Qurban bayramına hazırlıq

**Azərbaycanda və dünyanın bir çox müsəlman ölkələrində 5-7 iyun tarixlərində keçiriləcək müqəddəs Qurban bayramına böyük hazırlıqlar gedir. Qurban bayramı ərəfəsində yerlərdə görüşlər keçirilir, insanların əhval-ruhiyyəsi öyrənilir, kəsiləcək qurbanlıq heyvanlara baxılır, onların saxlanma, kəsilmə şəraiti araşdırılır, başlıcası isə imkansız ailələrin ehtiyacları ilə maraqlanılır, şəhid ailələri, qazilərlə görüşlər təşkil olunur.**

## Gəncə



Gəncə şəhərində qurbanlıq heyvanların kəsimi və satışı müvafiq norma və qaydalara uyğun, rahat və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün xüsusi məntəqələr yaradılıb. Belə ki, şəhərin “Kəpəz-Bazarı” ASC-də, “İmamzadə” Dini Kompleksinin qurbangahında, M.Bağırov küçəsində və keçmiş “Ət kombinatı”nın ərazisində qurbanlıq heyvanların satışı və kəsimi üçün məntəqələr təşkil olunacaq.

Bayram günlərində şəhər ərazisində qurbanlıq heyvanların kəsimi və satışının düzgün təşkili məqsədilə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə “İşçi qrupu” yaradılıb. “İşçi qrupu”nun üzvləri məntəqələrə baxış keçiriblər. Qrupun rəhbəri, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev satışı və kəsimi həyata keçirəcək məsul şəxslərlə görüşərək onlara izahat verib. O bildirib ki, Qurban bayramı günlərində vətəndaşlar və sahibkarlar qurbanlıq heyvanların kəsimini yalnız Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində qeydiyyatdan keçmiş kəsim məntəqələrində həyata keçirməlidirlər. Diri heyvanların satışı isə həmin məntəqələrin yanında xüsusi ayrılmış sahələrdə təşkil olunacaq. Qurbanlıq heyvanların kəsimindən əvvəl baytar həkimlər tərəfindən müayinə olunmasının vacibliyi də diqqətə çatdırılıb.

## Goranboy

Goranboyda Qurban bayramı ərəfəsində şəhid ailələri və qazilərlə görüş keçirilib. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev “Konstitusiya və suverenlik ili” ilə bağlı keçirilən ümumrayon tədbirləri çərçivəsində, Qurban bayramı ərəfəsində rayonun müəyyən xidmət sahələrinin rəhbərləri və bir qrup ictimai fəalla birgə Xan Qərvənd kəndində Birinci Qarabağ müharibəsi şəhidi Yaşar Ağalarov



və Vətən Müharibəsi şəhidi Nahid Ağalarovun atası Musa Ağalarovun evində olub.

Burada Xan Qərvənd, Əlirzalı, Yeniyol və Təklə kəndlərindən olan şəhid ailələri və qazilərlə görüş keçirilib. İcra hakimiyyətinin başçısı şəhid ailələri və qazilərin sosial qayğıları ilə maraqlanıb, çay süfrəsi arxasında səmimi söhbətlər aparıb.

## Şəmkir



Bayram günlərində Şəmkir rayonu ərazisindəki heyvan kəsimi məntəqələrində qida təhlükəsizliyi tələblərinin yerinə yetirilməsinə nəzarətin təşkili ilə bağlı Şəmkir RİH başçısının müvafiq sərəncamı ilə komissiya yaradılıb.

Komissiyanın sədri, RİH başçısının müavini Rüfət Sahibsoy tərəfindən rayon ərazisindəki heyvan kəsimi məntəqələrinə baxış keçirilib. Baxış zamanı məntəqə sahibləri və əməkdaşları ilə söhbətlər aparılıb, bayram günlərində qurbanlıq heyvan kəsiminin kütləviliyi nəzərə alınaraq qida təhlükəsizliyi sahəsində mövcud qayda və normalara əməl edilməsinin xüsusilə zəruri olduğu diqqətə çatdırılıb, bununla bağlı müvafiq tapşırıqlar verilib. Bayram günlərində məntəqələrin fəaliyyətinə, həmçinin ətraf mühitin heyvan mənşəli tullantılarla çirkləndirilməsinin qarşısının alınmasına komissiya tərəfindən ciddi nəzarət olunacağı qeyd edilib.

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Ağdamın “ağ qızıl” mövsümü

## *Səpin uğurla keçirilib, becərmə isə davam edir*

**Son illər ixracyönümlü məhsul istehsalının artırılması məqsədilə həyata keçirilən tədbirlər, bu istiqamətdə qəbul edilmiş dövlət proqramlarının icrası ölkəmizdə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın inkişafını sürətləndirir, regionlarda əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan daha effektiv istifadə olunmasına, infrastrukturun müasirləşdirilməsinə və əhalinin məşğulluğunun artmasına zəmin yaradır. Barlı-bərəkətli torpaqları olan Ağdam rayonunun pambıqçıları da onlar üçün yaradılmış əlverişli imkanlardan yararlanaraq daha çox “ağ qızıl” əldə etmək üçün tarlalarda səylə çalışırlar. Artıq xeyli müddətdir bütün rayon üzrə çiyid səpini tam şəkildə yekunlaşıb, bol məhsul uğrunda mübarizə isə davam etdirilir.**



“P-aqro” MMC-nin Ağdam filialının direktoru, I dərəcəli əmək ordenli Mürsəl Qurbanov “Xalq qəzeti”nin Qarabağ bürosuna açıqlamasında bildirib ki, rəhbərlik etdiyi qurum bu il 800 hektar sahədə çiyid səpini aparıb. Hədəf isə pambıq kollarına yaxşı qulluq göstərməklə, yüksək aqrotexniki xidmət sayəsində əkilən ərazidən yarım dəfə də artıq, yəni 1200 hektarın orta məhsuldarlığına nail olmaqdır. Bunun üçün isə hər cür şərait var, fermerlər hərtərəfli qayğı ilə əhatə olunublar – çiyid səpinindən başlayaraq bütün aqrotexniki xidmətlərin göstərilməsindən, sahələrin dərmanlanmasından tutmuş, ta ki məhsulun yığılıb məntəqəyə təhvil verilməsinə kimi bütün xərclər pambığın alışı zamanı hesablaşmaq şərtilə “P-aqro” MMC tərəfindən qarşılanır. Qalır ürəklə, həvəslə işləmək, işə can yandırmaq. Əlbəttə, pambıqçılıqda qarşıya qoyulan hədəflərə çatmaqda hava şəraiti də vacib rol oynayır. Belə ki, əkinin ilk günlərində havaların yağıntılı keçməsi çiyidin bitməsinə yaxşı təsir göstərsə də, sonrakı mərhələdə kolların inkişafı və məhsuldarlığı üçün isti, günəşli günlər vacibdir. El arasında deyilən kimi, pambıq deyir, ayağımı suya qoy, başımda od qala. Son günlər havaların yağıntılı keçməsi təsərrüfat sahiblərinə müəyyən çətinliklər yaratsa da, pambıq kollarının yağışlardan az zərər görməsi üçün müvafiq tədbirlər görülür, ziyanvericilərə qarşı mübarizə aparılır.

Rayon icra hakimiyyətinin və “P-aqro” MMC-nin rəhbərliyinin Ağdamda pambıqçılığın inkişafını hər zaman diqqətdə saxladığını bildirən filial direktoru onu da əlavə edib ki, texnika, onların ehtiyat hissələri, dərman vasitələri və gübrələrlə bağlı heç bir problemləri yoxdur. Filialın fəaliyyəti rayonda əhalinin məşğulluğuna da öz töhfəsini verir. Qurumda 40 nəfər ağdamlı daimi işlə təmin edilib, daha 10 nəfərlə isə mövsümi olaraq müddətli müqavilələr imzalanır.

Qeyd edək ki, Azərbaycanda pambıqçılığın inkişafını stimullaşdıran, bu sahəyə marağın ildən-ilə artmasına səbəb olan mühüm bir məqam da ölkədə pambıq əkinlərinin dövlət tərəfindən subsidiyalaşdırılmasıdır. Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 2.4-cü bəndinə müvafiq olaraq, 2025-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib. Qərara əsasən, cari təsərrüfat ilində müasir suvarma sistemləri ilə təmin olunmuş sahələrdə becərilən pambığın hər tonuna görə fermerlərə 210 manat, belə sistemlərin mövcud olmadığı sahələrdə becərilən pambığın hər tonuna görə isə 190 manat subsidiya veriləcək.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***
**Quzanlı**

# Samanyolu Andromeda ilə toqquşmaya bilərmi?

**Avropa və ABŞ-dan olan astrofiziklər Samanyolu ilə onun ən yaxın böyük qonşusu – Andromeda qalaktikası arasında növbəti 10 milyard il ərzində baş verəcək qravitasiya qarşılıqlı təsirini maksimum dəqiqliklə modelləşdiriblər. Yeni hesablamalar qalaktikaların yaxınlaşmasının gələcəkdə mütləq toqquşma ilə nəticələnəcəyinə dair əvvəllər irəli sürülmüş proqnozlara ciddi şəkildə yenidən baxılmasına səbəb olub. Bu barədə Böyük Britaniyanın Durham Universitetinin mətbuat xidməti məlumat yayıb.**

“Əvvəlki tədqiqatlarda əsas diqqət Samanyolu, Andromeda və Üçbucaq qalaktikalarının qarşılıqlı təsirinə yönəlmişdi. Biz isə bu modellərə Kiçik Magellan Buludunu da əlavə etdik. Kütləsi nisbətən az olsa da, bu obyektin cazibə qüvvəsi Samanyolu qalaktikasının trayektoriyasını kifayət qədər dəyişə bilir. Nəticədə Andromeda ilə toqquşma ehtimalı əhəmiyyətli dərəcədə azalır,” – deyə Helsinki Universitetinin (Finlandiya) tədqiqatçısı Till Savala bildirib.

Alimlərin sözlərinə görə, Samanyolu qalaktikası yalnız bir neçə cırtdan qalaktika ilə deyil, həm də bir sıra böyük obyektlərlə, o cümlədən Andromeda qalaktikası (M31) ilə əhatə olunub. 2,5 milyon işıq ili uzaqlıqda yerləşən bu qalaktikanın Samanyoluna yaxınlaşdığı artıq uzun illərdir ki, astronomlar tərəfindən müşahidə edilir və bir çoxları qarşıdakı 4,5 milyard il ərzində onların toqquşacağını ehtimal edirdilər.

Avropa və Amerika astrofizikləri bu proqnozu daha dəqiq müəyyənləşdirmək üçün 10 milyard il ərzində Samanyolu və onun yaxın ətrafında baş verə biləcək hadisələri əhatə edən ən əhatəli kompüter modelini hazırlayıblar. Bu modelləşdirmə zamanı tədqiqatçılar yalnız iki böyük qalaktikanın hərəkətini deyil, həmçinin onların peyklərinin, o cümlədən Kiçik Magellan Buludu və Andromedanın yaxın peyki sayılan M32 qalaktikasının təsirlərini də nəzərə alıblar.

Aparılan simulyasiyalar nəticəsində məlum olub ki, qarşıdakı 5 milyard il ərzində



Samanyolu ilə Andromeda qalaktikasının toqquşma ehtimalı cəmi 2 faiz təşkil edir. 10 milyard il sonra belə bir hadisənin başvermə ehtimalı isə 50 faizdən bir qədər artıq qiymətləndirilir. Bu nəticələr əvvəlki tədqiqatların ortaya qoyduğu qaçılmaz fəlakət ssenarisini ciddi şəkildə sual altına alır.

“Ətrafımızdakı kainatda qalaktikaların toqquşması və birləşməsi, superkütləli qara dəliklərin partlayışları kimi hadisələrə tez-tez rast gəlirik. İndiyə qədər biz də Samanyolunun belə bir aqibətlə qarşılaşacağını düşünürdük. Ancaq indi görürük ki, bizim qalaktikamızın belə bir taledən qurtulmaq üçün real şansı var,” – deyə Durham Universitetinin professoru Frank Karlos vurğulayıb.

***Mahmud QƏRİBOV***
***XQ***

## “Şirvan Mehmanxana” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 12.00-da "Şirvan Mehmanxana" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Şamaxı şəhəri 24-cü məhəllə, M. Əzizbəyov küçəsi, 41 nömrəli ünvanda "ŞİRVAN" hotelində keçiriləcəkdir.

Ümumi yığıncagın gündəliyi:

1) 2024-cü ilin maliyyə - təsərrüfat fəaliyyətinin hesabatı.

2) Təşkilati və sair məsələlər.

Səhmdar ümumi yığıncaqda bilavasitə özü və ya nümayəndəsi vasitəsilə etibarnamə ilə iştirak edə bilər.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiq edilmiş surətini) təqdim etməlidir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 116 (30810) 5 iyun 2025-ci il, cümə axşamı

5 İyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

# Hamımızın yaşıl dünyası

## *Ağaclar həyatı nurlandıran çıraqdır*

**"Hər kəsin bir ulduzu var" – deyirlər. Bəs hər kəsin ağacı necə? Ehtimal ki, bu suala müsbət cavab verənlər çox olacaq. Çünki bizim həyatımız bu və ya digər şəkildə ağaclarla bağlıdır. Xüsusilə kənddə doğulanlar ağacların həyatımızda necə əhəmiyyətli bir rol oynadığını təsdiq edə bilərlər. Kənd uşaqlarının çoxunun beşiyi ağacın altında qurulub, yüyrüyü ağacdan asılıb. Ağacdan asılan yelləncəklərdə yellənə-yellənə böyümüşük.**





Ağac elə təkcə meyvəsi ilə qidalanmaq, kölgəsində dincəlmək üçün deyil ki?... Ağac ev üçün ən yaxşı tikinti materalıdır, döşəmə, sürahi, pilləkən ağac materiallarla inşa edilir. Ağac odun-ocaqdı, qışda cırtacırtla yanan odun sobasından gözəl nə ola bilər? Ağac beşikdə böyüdüyümüz kimi qocalanda da ağac tabuta girib dünyadan köçürük. Deməli, doğulandan son mənzilə qədər ağac bizim yol yoldaşımız, dostumuz, sirdaşımızdır. Bəlkə də elə buna görə dünyadan nakam gedən şair Akif Səməd məşhur şeirlərindən birində "Ağac yaxın, daş doğmadı, Adamdan Akif Səmədə" deyirdi.

Elə sənət adamı, elə yazıçı və şair var ki, onun adını çəkəndə hansısa bir ağac xatırlanır. Məsələn, rus şairi Sergey Yesenin adını çəkəndə ağcaqayın, Rəsul Rza və Nəbi Xəzrinin adının çəkilməsi çinar, Toğrul Nərimanbəyovun adı nar ağacını, aşıq Şakir Hacıyevin adı nar çiçəyini yada salır. Rəsul Rzanın çinar ağacına yazdığı şeirlərdən başqa digər şeirlərində də çinar ağacının adı tez-tez çəkilir:

**Demirəm Göyçayda basdırın məni,**
**Ancaq ki, riyakar gözlərdən uzaq**
**Aparın bir çayda basdırın məni.**
**...Yaşıl saçlarını sulara sallayan**
**Salxım söyüdlər ağlasın...**

Çinar elə bir ağacdır ki, onu bir çox yazıçılar böyük məhəbbətlə vəsf ediblər. Mərhum Xalq yazıçısı Sabir Əhmədov da doğma Cəbrayıldakı nəhəng çinarı tez-tez xatırlayırdı. Kənd həyatını ustalıqla təsvir edən yazıçının əsərlərində kəhrizin üstündəki tut ağaçı da tez-tez yad edilir.

Dramaturq kimi ədəbiyyatımıza əvəzsiz xidmətlər göstərən İlyas Əfəndiyevin yaradıcılığında təbiət əsas yerlərdən birini tutur. Onun məşhur "Söyüdlü arx" romanını xatırlamaq kifayətdir.

Məğrur və dözümlü palıd ağacı yazıçı İsi Məlikzadəyə çox doğmadır. "Dədə palıd" romanının müəllifinin digər əsərləri də bunu sübut edir. Təbiət mövzusu Xalq şairi Məmməd Arazın da yaradıcılığından qırmızı xətlə keçir. Şeirlərində müxtəlif ağacların adını çəkən və onlara çox gözəl poetik dəyər verən Musa Yaqub üçün də təbiət çox doğmadır. Həyatində dağdağan ağacı bitən şairin şeirlərində həmin ağaca həsr edilmiş xeyli şeir var. "Yenə o bağ olaydı..." şeiri Mikayıl Müşfiq üşün üzüm tənəyini doğma hesab etməyə əasas verir.

Şair Ramiz Rövşənin yaradıcılığı üçün kötüyü simvol kimi qəbul etmək olar:

**Başı kəsik gözəl kötük,**
**sızldama, göynəmə,**
**Nə baltalar, nə bıçaqlar qalacaq.**
**Ucalıqdan yıxılsan da, qəm yemə,**
**Sən yıxılan ucalıqlar qalacaq...**

Əlbəttə, nəinki şair və yazıçılar üçün, bəlkə də hər kəs üşün doğma olan hansısa ağac var. Onu bizə doğmalaşdıran yolumuzun üstündə bitməyi, ətrafında böyüməyimiz, xasiyyətimizdəki müəyyən uyğunluqlar, bənzəyişlər və s. ola bilər. Bizə doğma olan ağacları əzizləməyə və sevməyə dəyər...

***Süleyman QARADAĞLI***

---

## İdman

### ATF rəsmisi Koreyada



**Azərbaycan Taekvondo Federasiyasının (ATF) Hakimlər Komitəsinin sədr müavini Aygül Abdullayeva Koreya Respublikasının Pxoxan şəhərinə səfər edib.**

Səfər çərçivəsində Pxoxan Taekvondo Federasiyası, Pxoxan İdmanlar Assosiasiyasının nümayəndələri ilə bir sıra görüşlər keçirilib.

Görüşlərdə ATF-nin fəaliyyəti, beynəlxalq uğurları və inkişaf perspektivləri barədə məlumat verilib, tərəflər arasında birgə layihələr, təlim-məşq toplanışları və təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

### Dövlət qurumlarının avarçəkmə yarışı




**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından (AKAF) mətbuata verilən məlumata görə, dövlət qurumları arasında avarçəkmə yarışı keçiriləcək.**

Turnir Gənclər və İdman Nazirliyi ilə AKAF-ın birgə təşəbbüsü əsasında baş tutacaq.

Bakı şəhəri, Dənizkənarı Bulvar, Əhəd Yaqubov küçəsində baş tutacaq tədbir 10-11 iyunda gerçəkləşəcək. İştirakçılar bir və iki nəfərlik kayak qayıqlarında şəxsi və komanda birinciliyi şəklində olmaqla 200 metr məsafəyə mübarizə aparacaqlar.

### "Neftçi" 2 futbolçu ilə müqaviləyə xitam verib

**"Neftçi" klubu daha 2 futbolçu ilə yolları ayırıb. Bu barədə "ağ-qaralar"ın mətbuat xidməti məlumat yayıb.**

Belə ki, Robert Bauer və Rafael Quzzo ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib.

Qeyd edək ki, paytaxt təmsilçisi daha əvvəl 7 oyunçu ilə vidalaşdığını açıqlayıb.

***XQ***

---

## Xankəndidə tibbi aksiya



**Səhiyyə Nazirliyi akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) tibb heyəti tərəfindən Xankəndi sakinləri üçün ikigünlük kardioloji müayinələr təşkil olunub.**

ETKİ-nin kardioloq, nevropatoloq, endokrinoloq, tibb bacısı və laboratoriya üzrə mütəxəssislərindən ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış aparılıb, ExoKQ, EKQ müayinələri keçirilib. Eyni zamanda, qanda şəkər, ekspres üsulu ilə xolesterinin səviyyəsi təyin olunub. Tibbi aksiya zamanı 200-ə yaxın vətəndaş müayinədən keçib.

Tədbirin davamı olaraq ETKİ tərəfindən Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində maarifləndirmə aksiyası da keçirilib. İnstitutun direktoru Gülnaz Dadaşova təqdimatla çıxış edərək, müasir dövrdə sağlam həyat tərzinin təbliği və ürək xəstəliklərinin artması baxımından layihənin əhəmiyyətindən danışıb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb və aksiya iştirakçılarına məlumatlandırıcı bukletlər paylanılıb.

***XQ***

---

## "Birlik rəngləri" Laçında

**MDB-nin mədəniyyət paytaxtı olan Laçındakı Yurd qalereyasında "Birlik rəngləri" adlı beynəlxalq incəsənət sərgisi açılıb. Sərginin məqsədi MDB coğrafiyasında zəngin mədəniyyət və incəsənət nümunələrini bir araya gətirərək, xalqlar arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da gücləndirməkdir.**

İştirakçı rəssamlar arasında Rusiyadan Yuliya Jukova, Belarusdan Kirill Orsik, Özbəkistandan Bobir Vaxobjanov, Qırğızıstandan Aıyp Alakunov, Qazaxıstandan Oralbek Kaboke, Tacikistandan Abdurahim Caborov, Azərbaycandan Vüqar Əliyev, Azər Abdullayev və Eldar Babazadənin əsərləri sərgilənib.

Sərgidə iştirak edən hər bir rəssam Laçın şəhəri haqqında özünəməxsus üslubunu və baxış bucağını ortaq bir kətana əks etdirib. Bu kollektiv proses sənətçilərin bir-birindən ilham almasına, fərqli texnikaları birləşdirməsinə və vahid bir mövzu ətrafında cəmləşməsinə imkan yaradıb.

Nəticədə, doqquz fərqli rəssamın öz bacarıqlarını birləşdirərək vahid bir əsər yaratdığı möhtəşəm sənət nümunəsi ortaya çıxıb. Yaranan bu əsər tədbirdən xatirə olaraq Laçın şəhərinə hədiyyə ediləcək.

***XQ***

---

## HAVA

### Abşeronda dəyişkən buludlu, bölgələrdə arabir yağış...



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 17-19, gündüz 26-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Səhər əksər rayonlarda yağıntıda fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 16-19, gündüz 25-30, dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti olacaq.

***QQ ASIMOV***
***XQ***

---

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin kollektivi Əməkdar jurnalist Fikrət Adıgözəlliyə atası, Əməkdar jurnalist

**İLYAS ADIGÖZƏLLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Samir Vəliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayevə qardaşı

**ŞAHİN EYNULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhərindən İlqar Abbasov Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə anası

**RAHİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Rəhimoğlu və fondun kollektivi Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü Yadigar Məmmədliyə anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3632
SİFARİŞ 1131
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00